Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 145 (8168) BAZAR, 7 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Ən islahatçı PREZİDENT



## İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında Azərbaycan 2019-cu ili həm sosial, həm də iqtisadi artımın təmin ediləcəyi dövr kimi başa vuracaq

Milli iqtisadiyyatın əsas inkişaf istiqamətləri üzrə yüksək nailiyyətlər qazanan Azərbaycan regionun əsas güc mərkəzi kimi mövqeyini möhkəmləndirməkdə davam edir. Prezident İlham Əliyevin böyük islahatlar paketi çərçivəsində ilin əvvəlindən etibarən daha genişmiqyaslı mərhələyə qədəm qoyan davamlı islahatlar öz bəhrəsini verir. Məhz bu sosial-iqtisadi islahatlar sayəsində ölkə iqtisadiyyatının dayanıqlılığı daha da möhkəmlənir, biznes mühiti yaxşılaşır, investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul edilir, ölkə əhalisinin rifah halı yüksəlir.

### İqtisadi islahatların dividendləri

Həyata keçirilən məqsədyönlü və dəqiq hədəflərə hesablanmış sosial-iqtisadi siyasətin real nəticələri konkret rəqəmlərdə də ifadə olunur. Bunu iqtisadi göstəricilərə nəzər yetirsək aydın şəkildə görə bilərik. Həyata keçirilən kompleks islahatlar nəticəsində təkcə bu ilin 5 ayı ərzində 30 milyard 608,7 milyon manatlıq ümumi daxili məhsul istehsal edilib. ÜDM-nin 46 faizi sənayenin, 9,9 faizi ticarət, 14, 4 faizi digər sahələrin payına düşüb. Ölkənin qeyri-neft ixracı 17,8 faiz artıb. Bu müddət ərzində ölkə iqtisadiyyatına 2,8 milyard dollar investisiya yatırılıb ki, bunun da 2 milyard dollarını qeyri-neft sektoruna qoyulmuş sərmayə təşkil edir.

Xarici ticarət balansının müsbət saldosu 1,34 milyard dollar təşkil edib, strateji valyuta ehtiyatları 47 milyard dollara yaxın yüksəlib.

Ölkədə işgüzar sferanın əlverişliliyi, aparılan islahatların müsbət nəticələri nüfuzlu beynəlxalq təşkilatlar və reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın 10 ən islahatçı ölkəsi siyahısına daxil edilib və ən çox islahat aparan ölkə elan olunub. Hesabatda ölkəmiz 10 göstəricidən 8-i üzrə irəliləyib. Misal üçün, “Biznesə başlama” göstəricisi üzrə 9 pillə irəliləyərək 9-cu pilləyə, “Kiçik investorların maraqlarının qorunması” göstəricisi üzrə 8 pillə irəliləyərək 2-ci pilləyə yüksəlib.

Regionların sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək məqsədi ilə Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nı, yeni dördüncü dövlət proqramını təsdiqləyib. Artıq proqramın icrası çərçivəsində bu il regionlarda 3 məktəb, 5 uşaq bağçası, 3 səhiyyə müəssisəsi, 2 mədəniyyət obyekti və 1 olimpiya idman kompleksi istifadəyə verilib.

### Getdikcə dərinləşən sosial islahatlar

Prezident İlham Əliyevin böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına, əhatə dairəsinə görə inqilabi qərarlardır. Qazanılan uğurlar bir tərəfdən düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə İlham Əliyevin cəsarətli, inamlı addımlarının, ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətinin təzahürüdür. Elə bir ikinci ölkə tapılmaz ki, 4 ay ərzində 2 dəfə maaşların, minimum pensiya və əməkhaqlarının artırılması ilə bağlı sərəncamlar imzalansın.

İlin əvvəlində sosial islahatlar paketi çərçivəsində maaşlar, sosial müavinətlər, təqaüdlər, pensiyaların artırılması ilə bağlı sərəncamlar imzalayan dövlət başçısı iyunun 18-də daha 2 milyon insana sevinc bəxş etdi.

Öncə Prezidentin fevral islahatlarına nəzər yetirək. İmzalanan sərəncamlarla dövlət başçısının ilk növbədə qaçqın və məcburi köçkün, şəhid ailələrinə necə qayğı ilə yanaşdığı bir daha bəlli oldu.

Ardı 4-cü səh.

## Qarşılıqlı maraqlara əsaslanan Azərbaycan-İtaliya əlaqələri uğurlu əməkdaşlığın gözəl nümunələrindən biridir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da İtaliyanın Veneto regionunun prezidenti Luka Zayanı və İtaliya nümayəndə heyətinin üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan-İtaliya əməkdaşlığının siyasi, iqtisadi, energetika, mədəniyyət və digər sahələrdə çox uğurla inkişaf etdiyini və ölkələrimizin strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirdiklərini dedi. Dövlət başçısı bildirdi ki, qarşılıqlı maraqlara əsaslanan Azərbaycan-İtaliya əlaqələri uğurlu əməkdaşlığın gözəl nümunələrindən biridir. Prezident İlham Əliyev ötən il İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana səfərini bu istiqamətdə atılmış önəmli addımlardan biri kimi dəyərləndirdi. İtaliya şirkətlərinin Azərbaycanda böyük layihələrdəki uğurlu fəaliyyətinə toxunan Prezident İlham Əliyev “Cənub qaz dəhlizi” layihəsinin əhəmiyyətini vurğuladı. “Cənub qaz dəhlizi”nin əməkdaşlıq üçün genişmiqyaslı bir layihə olduğunu qeyd edən dövlət başçısı bu layihənin Azərbaycan-İtaliya əlaqələrinə və eyni zamanda regional əməkdaşlığın inkişafına əsaslı töhfə verdiyini və marşrut boyunca yerləşən ölkələri bir-birinə yaxınlaşdırdığını dedi. Dövlət başçısı İtaliya nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-İtaliya əlaqələrinin daha da inkişaf etdirilməsi üçün önəmli addım olacağını vurğuladı.

Qəbula görə minnətdarlığını bildirən İtaliyanın Veneto regionunun prezidenti Luka Zaya iki ölkə arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından regionlararası əlaqələrin əhəmiyyətini vurğuladı. O, təmsil etdiyi region haqqında dövlət başçısına məlumat verərək əməkdaşlığımızın inkişafı üçün böyük potensialın olduğunu bildirdi. Azərbaycanın İtaliyanın Veneto regionunda yaxşı tanındığını deyən Luka Zaya “Venesiya Biennalesi” Beynəlxalq İncəsənət Sərgisi çərçivəsində Azərbaycan pavilyonunun daim böyük maraqla qarşılandığını dedi. O, eyni zamanda Bakıda keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının önəmini də vurğuladı.

Görüşdə iştirak edən İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Quqlielmo Pikki Azərbaycan ilə İtaliya arasında strateji əlaqələrin mövcudluğunu qeyd edərək ölkələrimizin əməkdaşlığının daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. O, TAP layihəsinin yekunlaşmaq üzrə olduğunu vurğulayaraq “Cənub qaz dəhlizi” layihəsinin əhəmiyyətini bir daha qeyd etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfə yüksək qiymətləndirilir

Bakı Konqres Mərkəzində keçirilən UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

Dünya mədəni irsi ilə bağlı məsələlərin müzakirə edildiyi və dünyanın 180-dən artıq ölkəsindən 2500 nəfərdən artıq nümayəndənin qatıldığı sessiyada UNESKO-ya üzv dövlətlərdən yüksək səviyyəli rəsmilər, o cümlədən bir çox ölkələrin Baş nazirləri, Baş nazir müavinləri, Mədəniyyət, Ətraf Mühit, Turizm nazirləri, həmçinin beynəlxalq təşkilatların rəhbər şəxsləri, UNESKO-nun məşvərət orqanlarının rəhbərləri, 70-ə yaxın ölkənin UNESKO yanında daimi nümayəndələri və memarlıq, irs və ətraf mühit sahələri üzrə mütəxəssislər iştirak edirlər. İyulun 10-dək davam edəcək sessiya zamanı UNESKO-nun Dünya İrs Siyahısına daxil edilmək üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl nəzərdən keçirilir.

Namizədliyi irəli sürülmüş faylların 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq abidələr sırasına daxildir. Sessiyada Şəki Xan sarayının Mədəni İrs Siyahısına salınması ilə bağlı təklif də yer alıb.

Hazırda UNESKO-nun Dünya İrs Siyahısında 134 ölkədən ümumilikdə 1092 abidə var. Çıxışlarda bu abidələrin qorunma vəziyyəti müzakirə olundu. Qeyd edildi ki, hazırda Ümumdünya İrs Komitəsinin çağrı mərkəzləri və iki elektron poçtu fəaliyyət göstərir. Quruma daxil olan hər bir sorğu ətraflı cavablandırılır. Müzakirələr və fikir mübadiləsi zamanı komitənin son illər müxtəlif ölkələrdə reallaşdırdığı layihələr və gələcək planları barədə ətraflı açıqlamalar verilir.

Ardı 4-cü səh.





## Əhalinin məşğulluğunun təminatı dövlətin sosial siyasətində prioritet istiqamət olaraq qalır

### Ölkədə sosial müdafiə məsələlərinin həllinə yeni yanaşma tətbiq ediləcək

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində “Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya”nın yaradılması haqqında fərman imzalamışdır.

Observatoriyanın yaradılması əhalinin məşğulluğu və sosial müdafiəsi sahələrində səmərəli idarəetmə qərarlarının qəbul edilməsi üçün monitorinq və proqramlaşdırma sisteminin təşkili məqsədini daşıyır. Bu da əhalinin sosial müdafiəsinin gücləndirilməsinin, məşğulluq probleminin həllinin dövlətin daim diqqət mərkəzində olduğunu bir daha təsdiqləyir.

İnsanların maddi rifahının yaxşılaşdırılması üçün əsas şərtlərdən olan yeni iş yerlərinin yaradılması üçün görülən məqsədyönlü tədbirlər, o cümlədən iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən yeni-yeni müəssisələrin işə salınması, sahibkarlığın getdikcə genişləndirilməsi davamlı xarakter daşıyır.

Ardı 4-cü səh.

# “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü və 15-ci bəndlərini rəhbər tutaraq, “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1445-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7, maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45; Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1508 nömrəli və 29 mart tarixli 1550-VQD nömrəli qanunları) 11.1.2-ci maddəsinə “girov” sözündən sonra “və ya ipoteka” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

# “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1589-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1589-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2001-ci il 26 dekabr tarixli 616 nömrəli və “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2007-ci il 3 iyul tarixli 606 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1481-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 mart tarixli 582 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 616 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 762; 2006, № 12, maddə 1034; 2008, № 3, maddə 187; 2016, № 9, maddə 1464; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli 692 nömrəli Fərmanı) 2-ci hissəsinin üçüncü abzasında “4-cü (adında və mətnində)” sözləri “4.1-ci, 4.2-ci” sözləri ilə əvəz edilsin.

2. “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli 606 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 713) 2.3-cü bəndində “5.4-cü” sözləri “5.4-cü, 6.3-cü” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1627-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 may tarixli 667 nömrəli, 3 may tarixli 672 nömrəli, 7 may tarixli 683 nömrəli və 29 may tarixli 714 nömrəli fərmanları) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”na aşağıdakı məzmunda 31-4-cü hissə əlavə edilsin:

“31-4. Məcəllənin 393-1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

31-4.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31-4.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - bu Siyahının 65-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyul 2019-cu il*

# YAP İcra Katibliyində “Heydər Əliyev: Azərbaycana həsr olunmuş ömür” adlı tədbir keçirilib

İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə “Heydər Əliyev: Azərbaycana həsr olunmuş ömür” adlı tədbir keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbirdə YAP İdarə Heyətinin və Siyasi Şurasının üzvləri, dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, elm xadimləri və YAP fəalları iştirak ediblər.

Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov tədbirdə çıxış edərək müasir Azərbaycan tarixinin son 50 ilinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. O qeyd edib ki, 1960-cı illərdə Azərbaycan keçmiş ittifaq respublikaları arasında ən geridə qalan respublikalardan biri idi. Ancaq Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə müasir tariximizdə dönüş baş verdi. Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə seçilməsi tariximizin dönüş nöqtəsi kimi yaddaşlara həkk olunub. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə milli inkişafın və intibahın əsası qoyuldu. 1960-cı illərə qədər Azərbaycan bütün sahələrdə xoş olmayan günlərini yaşayırdı, insanların həyat səviyyəsi yaxşı deyildi. Nəticə etibarilə, Azərbaycan keçmiş SSRİ-nin ən geridə qalmış respublikalarından biri idi. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə seçilməsindən çox qısa zaman sonra Azərbaycanda o zaman müşahidə olunan xoşagəlməz proseslərin qarşısı alındı, iqtisadiyyat inkişaf etməyə başladı, çoxlu sayda sənaye müəssisələri yaradıldı. Respublikanın sənaye potensialı yüksəldi, kənd təsərrüfatında böyük dönüş başladı. Məhz o zamandan Azərbaycanın şəhərlərinin, kəndlərinin siması dəyişdi. Bakı şəhəri müasirləşdi, yeniləşdi. Təkcə sənaye və kənd təsərrüfatı deyil, elm və təhsil, mədəniyyət, səhiyyə də ciddi şəkildə inkişaf etdi. Çoxlu məktəblər, ali təhsil ocaqları yaradıldı. Eyni zamanda Azərbaycan gənclərinin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almalarına imkan yaradıldı. Bu gün ölkəmizdə ayrı-ayrı sahələrdə çalışıb davamlı inkişafa töhfələr verən şəxslərin böyük əksəriyyəti həmin kateqoriyanın insanlarıdır. Həmçinin respublikamızda mədəniyyətin, incəsənətin inkişafına davamlı töhfələr verildi. Azərbaycanın bir çox dəyərli elm, mədəniyyət, incəsənət adamları o dövrün ən yüksək fəxri adlarına layiq görüldülər. Bütün bunların hamısı Ulu Öndər Heydər Əliyevin Azərbaycan qarşısında etdiyi möhtəşəm xidmətlərdir ki, bunların sayəsində respublikamız böyük bir inkişaf mərhələsi keçdi.

Baş Nazirin müavini bildirib ki, müstəqil Azərbaycanın formalaşması, qüdrətinin artması missiyası da Heydər Əliyevin əzəmətli çiyinləri üzərində qərar tutmalı oldu. O xatırladıb ki, 1990-cı illərin əvvəllərində Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz müstəqilliyini əldə etdi. Amma yenə də ölkəmizin real müstəqil dövlət kimi formalaşması, təsdiqi Ulu Öndərin xidməti kimi tariximizə yazılıb. 1990-cı illərin əvvəllərində Azərbaycan müstəqillik əldə etdikdən sonra o dövrün hakimiyyəti Azərbaycanın müstəqil dövlət kimi formalaşmasını təmin etmək iqtidarında deyildi. 1993-cü ilin iyun ayında Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizi mövcud problemlərdən xilas etdi. Müstəqil Azərbaycan dövləti yarandı. Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi və ölkəmizin yüksək inkişafa gəlib çatması təkcə həmin dövr üçün xarakterik olan hadisə deyildi. Bu, Azərbaycanın müstəqillik dövründə də özünü göstərdi.

Bu gün Azərbaycanın Heydər Əliyev siyasətinin uğurlarını yaşadığını deyən Baş Nazirin müavini söyləyib ki, dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu gün əldə etdiyimiz nailiyyətlər Heydər Əliyev siyasətinin nəticəsidir. Bütövlükdə, Azərbaycanın uğurlu inkişafının təməlində Heydər Əliyev siyasəti dayanır. Bu, elə bir siyasətdir ki, onun əsasında Azərbaycan bundan sonra da uzun illər öz yüksəlişini təmin edəcək. Azərbaycan daha da qüdrətlənəcək, möhkəmlənəcək, xalqımızın milli həmrəyliyi daha da güclənəcək, ölkəmizin dünya birliyində mövqeləri artacaq.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə Heydər Əliyevin hakimiyyətə gəlişi ərəfəsində ölkəmizin çox ciddi problemlərlə üz-üzə qaldığını xatırladıb: “O zaman əhalinin yarısı kənd təsərrüfatı sahəsində işləyirdi. Amma bu sahə inkişaf etmədiyi üçün insanların sosial vəziyyəti pisləşirdi. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanda bütün sahələr inkişaf etməyə başladı. Bir neçə qərar qəbul edildi. Sovet İttifaqından Azərbaycana böyük bir vəsait ayrıldı. Çayçılıq, üzümçülük və digər sahələr inkişaf etdi. O vaxt Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları formalaşırdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra onlar bu iddialardan bir müddət əl çəkdilər”.

Respublika Ağsaqqallar Şurasının sədri, deputat Fəttah Heydərov çıxış edərək bildirib ki, Heydər Əliyevin hakimiyyətə gəldiyi gün Azərbaycanın müstəqilliyə gedən yolunun əsası qoyulub: “SSRİ-də iqtisadi inkişaf baxımından sonuncu yerdə olan Azərbaycan Heydər Əliyevin hakimiyyəti illərində ilk yerlərdə qərarlaşdı. Azərbaycan sürətlə inkişaf etdi və Sovetlər İttifaqının ən qabaqcıl ölkələrindən birinə çevrildi”.

F.Heydərov vurğulayıb ki, bu gün dünyada hörmətlə qarşılanan Azərbaycan Heydər Əliyevin seçdiyi yolun nə dərəcədə uğurlu yol olduğunu göstərir: “Azərbaycan müxtəlif dinlərin və xalqların nümayəndələrinin tolerant şəraitdə yaşadığı bir dövlət, iqtisadi, mədəni və digər sahələrdə inkişafın nümunəsidir. Mən Azərbaycan xalqını Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50-ci ildönümü münasibəti ilə təbrik edirəm”.

Tədbir digər çıxışlarla davam etdirilib.

# *Elmar MƏMMƏDYAROV:* “Azərbaycan Sakit Okean Alyansı ölkələri ilə siyasi, iqtisadi və mədəni əlaqələri genişləndirməkdə maraqlıdır”

Sakit Okean Alyansının (SOA) Limada keçirilən 14-cü Zirvə toplantısında çıxış edən Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov üzv ölkələrə Azərbaycanın təşkilata müşahidəçi statusu ilə yekdilliklə qəbul edilməsi qərarı üçün təşəkkürünü bildirib.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Alyansın üzv ölkələri ilə qarşılıqlı siyasi-iqtisadi əməkdaşlıqda maraqlı olduğunu vurğulayan nazir ölkəmizin enerji və nəqliyyat sahələrinin potensialı haqqında məlumat verib.

Elmar Məmmədyarov regional sabitlik üçün əsas təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında tədbir iştirakçılarını məlumatlandırıb. “Təəssüf ki, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının vasitəçilik səyləri Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün bərpası kimi nəticələri hələ də verməyib. Müzakirələrin bu konkret nəticəsi BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində, eləcə də ATƏT, Avropa İttifaqı və münaqişə ilə bağlı qərar qəbul edən, demək olar ki, bütün beynəlxalq təşkilatların müvafiq sənədlərində təsbit edilib.

Münaqişənin sülh yolu ilə həll olunmasına və ATƏT-in vasitəçiliyi ilə danışıqlar prosesində fəal mövqe tutmağa səy göstərən Azərbaycan beynəlxalq ictimaiyyətin Ermənistan tərəfindən Azərbaycan torpaqlarının qeyri-qanuni işğalının nəticələrini möhkəmləndirməyi nəzərdə tutan hər hansı fəaliyyətdə iştirakdan çəkinəcəyini və təcavüzkarın Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına dair müvafiq BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyə məcbur edən tədbirlər görəcəyini gözləyir”, - deyə Xarici İşlər naziri qeyd edib.

Azərbaycanın qlobal əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində fəaliyyətindən bəhs edən nazir deyib: “Azərbaycan Cənubi Amerika ölkələri və eyni zamanda Sakit Okean Alyansının mühüm üzvləri ilə siyasi, iqtisadi və mədəni əlaqələrini genişləndirməkdə maraqlıdır. Mən bir neçə ay bundan əvvəl, mart ayında Cənubi Amerikaya səfərim çərçivəsində, xüsusilə Alyansın üzvü olan Çilidə bu maraqları vurğulamışdım. Təsadüfi deyil ki, Buenos-Ayresdə keçirilən və mənim də iştirak etdiyim Cənub-Cənub Əməkdaşlıq üzrə BMT-nin Yüksək Səviyyəli Konfransında bu cür əməkdaşlığın iqtisadi perspektivləri vurğulanıb. Biz cənub ölkələri arasında əməkdaşlığın potensialını hələ də tam şəkildə istifadə etmirik və buna nail olsaq, qlobal sosial-iqtisadi qayda, xüsusilə də dünya ticarətində mövcud böhran vəziyyətinin həllinə böyük töhfə verəcəyinə inanırıq. Xüsusilə də bütün bu məqsədlər Sakit Okean Alyansının prioritetləri arasındadır. Alyansa üzv olan və birlikdə ÜDM-ləri dünyada 6-cı yeri tutan Cənubi Amerika ölkələrinin, xüsusilə Asiya ölkələri ilə ticarət əlaqələrini asanlaşdırmaq məqsədilə səylərinin birləşdirilməsi fikri Azərbaycan üçün maraq kəsb edir. Alyans ölkələrinin Asiya ölkələrində istehsal etdiyi mal və xidmətlərin Yaxın Şərq və Avropa bazarlarına daha çox ixrac ediləcəyini nəzərə alaraq Azərbaycanın Qafqazın təbii qapısı qismində və Şərq-Qərb ticarət dəhlizində nəqliyyat mərkəzi kimi əhəmiyyətini artırır”.

Elmar Məmmədyarov qeyd edib ki, regionun aparıcı və dinamik iqtisadiyyatı kimi, Azərbaycan “Bir kəmər - bir yol” təşəbbüsündə mühüm rol oynayır. Ölkəmiz tarixi İpək yolu üzərində yerləşir və Azərbaycan bu marşrutda fəal şəkildə infrastrukturun modernləşdirilməsinə, mövcud və yeni dəmir yolu xətlərinin, magistral yolların, dəniz və hava limanlarının bərpasına sərmayə qoyur. Azərbaycan, həmçinin Fars körfəzindən malların İran və Rusiya vasitəsilə Avropaya tranzitinə imkan verəcək “Şimal-Cənub nəqliyyat dəhlizi”nin daha da inkişaf etdirilməsində fəal iştirak edir. Azərbaycan tərəfindən irəli sürülən digər bir dəhliz Cənub-Qərb beynəlxalq nəqliyyat marşrutudur ki, onun da məqsədi Hindistan, İran, Fars körfəzi ölkələri ilə Türkiyə və Avropanı birləşdirməkdir. Bu ticarət dəhlizlərinin potensialı böyükdür.

“Yuxarıda qeyd olunan və artmaqda olan bağlılığa töhfə verən layihələrdən daha biri Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrini birləşdirən və Avropa ilə Asiya arasında etibarlı və inteqrasiya olunmuş dəmir yolu xəttinə mühüm töhfə verən Bakı-Tbilisi-Qars dəmir yoludur. Azərbaycan, həmçinin Xəzər dənizində ən böyük kommersiya donanmasına malikdir. Xəzər dənizinin Bakı limanında tikilmiş yeni gəmiqayırma zavodu bütün növ gəmilərin istehsalına və Xəzər dənizində yük axınının artmasına imkan verir. Bundan əlavə, biz Şərq-Qərb yolunun mərkəzində yerləşən yeni Bakı Limanının ətrafında Azad İqtisadi Zonanın yaradılması yolu ilə xarici ticarət şirkətləri üçün ticarət-logistika sektorunda əlverişli sərmayə rejimini təmin etmək üçün çoxlu səylər göstərmişik. Bu Azad İqtisadi Zonanın məqsədi Azərbaycanın regional ticarət və logistika mərkəzi kimi cəlbediciliyini artırmaqdır.

Ölkənin mühüm marşrut nöqtəsi və aktiv investor kimi iştirak etdiyi bütün bu layihələr mal və xidmətlərin Asiya bazarından Yaxın Şərq, MDB və Avropa ölkələrinə və əks istiqamətdə çatdırılma vaxtı və xərclərini əhəmiyyətli dərəcədə minimuma endirməyə imkan verəcəkdir. Hesab edirəm ki, bu, Sakit okean Alyansı və Azərbaycan arasında çoxtərəfli və ikitərəfli əsasda əməkdaşlığın genişləndirilməsi üçün yaxşı bir iş platforması ola bilər. Bu baxımdan, müşahidəçi dövlətlərlə əməkdaşlıq üçün təkliflərin toplanmasına cavabdeh olan Əməkdaşlıq Fondu ilə konkret işə hazırıq”,- deyə nazir vurğulayıb.

Qeyd edək ki, 2011-ci ildə Meksika, Kolumbiya, Peru və Çili tərəfindən təsis edilmiş SOA-da Avropa İttifaqının və Şimali Amerikanın aparıcı ölkələri daxil olmaqla 59 ölkə müşahidəçi üzv statusuna malikdir.

Qrup ölkələrinin toplam ümumi daxili məhsulu dünya iqtisadiyyatı siyahısında altıncı yerə malikdir.

* * *

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Sakit Okean Alyansının Limada keçirilən 14-cü Zirvə toplantısı çərçivəsində Yaponiya Xarici İşlər nazirinin müavini Kiyoto Tsuji, Kolumbiyanın Xarici İşlər naziri Karlos Holmes Truxiyo Garsia və Kosta Rikanın Xarici Ticarət nazirinin müavini Duayner Salas Çaverri ilə görüşlər keçirib.

Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, görüşlərdə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb.

Tərəflər ikitərəfli əlaqələrin inkişafı baxımından müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin əhəmiyyətini qeyd ediblər. Habelə Xarici İşlər nazirlikləri səviyyəsində siyasi məsləhətləşmələrin keçirilməsinə dair razılıq ifadə edilib.

Görüşlər zamanı, həmçinin qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlərə dair müzakirələr aparılıb.

# ATƏT PA-nın iclasında Azərbaycan nümayəndə heyətinin təklif etdiyi düzəliş qəbul olunub





Lüksemburqda İsveçrə nümayəndə heyətinin başçısı Marqareta Kiner Nellenin sədrliyi ilə işə başlamış ATƏT PA-nın Demokratiya, İnsan Hüquqları və Humanitar Məsələlər Komitəsinin iclası davam edir.

AZƏRTAC-ın xəbər verdiyi kimi, iclasda Azərbaycan qanunverici orqanının nümayəndə heyətinin başçısı, Milli Məclisin Sədr müavini Bahar Muradovanın rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir.

Komitə üzvlərinin mühakiməsinə Kiprdən olan deputat Kiriakos Hadjiyanninin hazırladığı və təklif etdiyi qətnamə layihəsi çıxarılıb.

Müzakirələrdə çıxış edən Milli Məclisin deputatı Tahir Mirkişiyev deyib ki, Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni və Azərbaycan icmaları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri hüdudlarında birgə yaşaya bilərlər və yaşamalıdırlar. Bu, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin 20 faizinin işğaldan azad edilməsindən sonra mümkündür. Mirkişilinin sözlərinə görə, işğal faktı və etnik təmizləmə siyasəti beynəlxalq hüquqa ziddir və insan hüquqlarını pozur.

Azərbaycan nümayəndə heyətinin başçısı Bahar Muradova münaqişə zonası ilə bağlı 33-cü maddəyə 15-ci düzəlişi etməyi və təkcə münaqişə zonalarında deyil, həmçinin münaqişələrdən və doğma torpaqlarının işğalından əziyyət çəkən şəxslərin nəzərə alınmasını təklif edib. İclasın sədri və layihənin müəllifi, habelə deputatların iştirakı ilə ardıcıl davam edən məsləhətləşmələrin gedişində və Azərbaycan nümayəndə heyətinin başçısının inandırıcı əsaslandırması nəticəsində konsensus əldə edilib. Bundan sonra B.Muradovanın qətnamə layihəsinə təklif etdiyi düzəliş səsverməyə çıxarılıb və yekdilliklə qəbul olunub.

# "Mən "SABAH"ın məzunuyam" adlı tədbir keçirilib

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib












İyulun 5-də "Mən "SABAH"ın məzunuyam" adlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Əvvəlcə Leyla Əliyeva, Təhsil naziri Ceyhun Bayramov və iştirakçılar "Mən "SABAH"ın məzunuyam" adlı sərgi ilə tanış olublar.

Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə daha sonra "SABAH" qruplarının fəaliyyəti haqqında videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq ali təhsil sistemində inkişaf göstəricilərinin daha da yüksəldilməsi istiqamətində reallaşdırılan tədbirlərdən, qazanılan uğurlardan danışıb. "SABAH" layihəsinin əhəmiyyətini vurğulayan nazir qeyd edib ki, 2014-2015-ci tədris ilində 755 tələbənin iştirakı ilə başlayan layihə hazırda 2300-dən çox tələbəni əhatə edir. Bu gün elmi-pedaqoji mühiti, müasir maddi-texniki bazası olan 12 ali təhsil müəssisəsində 39 ixtisas üzrə "SABAH" qrupları fəaliyyət göstərir. "SABAH" layihəsinin əsas şüarı - savadlı, bacarıqlı və hazırlıqlı - Azərbaycan tələbələrinin qarşısına qoyulan məqsədi ifadə edir. "SABAH" layihəsi beynəlxalq təcrübənin öyrənilməsi ilə yanaşı, məhz Azərbaycanın dəyərləri və ölkə qarşısında duran məqsədlər nəzərə alınaraq yaradılmış təhsil modelidir.

Son illərdə aparılmış çoxşaxəli təhsil islahatlarını diqqətə çatdıran nazir C.Bayramov ölkəmizdə gənclərin keyfiyyətli təhsil almaları üçün əlverişli şəraitin yaradıldığını diqqətə çatdırıb. Qeyd edib ki, "SABAH" qrupları da bu islahatlar arasında əhəmiyyətli yer tutur.

Müasir dünyada elmin, təhsilin mühüm rolundan bəhs edən C.Bayramov ölkəmizdə bu sahənin inkişafına xüsusi önəm verildiyini vurğulayıb. Nazir məzunların doğma Azərbaycanın davamlı inkişafına töhfə verəcəklərinə əminliyini bildirib. Təhsil naziri "SABAH" məzunlarının uğurlu fəaliyyətinə toxunaraq bir daha bütün məzunları təbrik edib və onlara gələcək həyatlarında uğurlar arzu edib.

Mərasimdə rəmzi "SABAH" açarı III kurs tələbələrinə verilib.

Sonda "SABAH" qruplarının himni səsləndirilib.

Tədbir bədii hissə ilə davam etdirilib.

"SABAH" qrupları 2014-2015-ci tədris ilində 34 ixtisas üzrə 7 dövlət ali təhsil müəssisəsində yaradılıb. Hazırda "SABAH" qrupları 12 ali təhsil müəssisəsində fəaliyyət göstərməklə 39 ixtisas üzrə 2300-dən çox tələbəni əhatə edir.

2018-2019-cu tədris ilində 701 "SABAH" məzunu təhsilini başa vurur.

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası nominasiyaların təqdimatı ilə davam edir

## Bir sıra ölkələrin mədəni irs nümunələri UNESKO-nun siyahısına salınıb






Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 6-da öz işini nominasiyaların təqdimatı ilə davam etdirir.

AZƏRTAC xəbər verir ki, tədbiri açan sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev iclasda 8 nominasiyanın UNESKO-nun Dünya İrs Siyahısına salındığını xatırladıb. Əlavə edib ki, bu gün də yeni nominasiyalar siyahıya daxil ediləcək. "Bizi qarşıda gərgin müzakirələr gözləyir", - deyə nazir bildirib.

Sessiya öz işinə Bəhreynin Dilmun kurqanları ilə bağlı nominasiyanın müzakirəsi ilə başlayıb. Bildirilib ki, Dilmun çox əhəmiyyətli bir ticarət yolu idi. Özünün inkişaf mərhələsində Bəhreyn, Küveyt və Səudiyyə Ərəbistanının ərazilərini əhatə edirdi.

Avstraliya, Çin, Küveyt və İspaniya nümayəndələri hazırlanmış faylı yüksək qiymətləndirib və Bəhreynin Dilmun kurqanları UNESKO-nun Dünya İrs Siyahısına salınıb.

Sonra Avstraliyanın Buc Bim mədəni landşaftı nominasiyası müzakirə edilib. Macarıstan, Çin, Norveç, İspaniya və digər üzv ölkələrin nümayəndələri 660 min il yaşı olan bu mədəni landşaftla bağlı hazırlanmış faylı yüksək dəyərləndiriblər və bu nominasiya UNESKO-nun siyahısına daxil edilib.

Növbəti müzakirə Cinin təqdim etdiyi Lyançju şəhərindəki arxeoloji qalıqlarla bağlı olub. Bildirilib ki, burada tapılan arxeoloji tapıntılar Çin sivilizasiyasının mənşəyini öyrənməyə yaxşı imkan yaradır. Üzv dövlətlər tərəfindən 5 min il yaşı olan Lyançju şəhərinin tarixi irsinin qorunmasının vacibliyi vurğulanıb. Müzakirələr nəticəsində qədim Çin sivilizasiyasının bu nümunəsi Dünya İrs Siyahısına salınıb.

Daha bir nominasiya Hindistanda yerləşən Caypur şəhəri ilə bağlı olub. Bu şəhər hindu sivilizasiyasının qalıqlarını özündə əks etdirir. Divarlarla əhatə olunmuş köhnə şəhərin memarlığında çəhrayı qum daşından çox istifadə edildiyi üçün Caypur "çəhrayı şəhər" kimi məşhurdur. Onun düzgün planlaşdırılması qədim Hind memarlığı ənənələrinin davamıdır.

Müzakirələrdən sonra Hindistanın Caypur şəhəri UNESKO-nun siyahısına daxil edilib.

İndoneziyadakı Savahlunto kömür mədəni ilə bağlı nominasiya müzakirə edilərkən bildirilib ki, bu, çox önəmli bir mədəni irsdir. Müzakirələrdən sonra mədən Dünya İrs Siyahısına salınıb.

Günün müzakirə olunan növbəti faylı isə Yaponiyanın "Mozu-Furuichi Kofun Qrupu" (qədim məzarlıq) ilə bağlı olub. Kofun dövrünü əks etdirən bu məzarlıqlar yüksək sosial sinfin nümayəndələri, xüsusilə də imperator ailəsinin üzvlərini dəfn etmək üçün yaradılıb. Bildirilib ki, bu məzarlıq yerli əhali tərəfindən 1500 ildir qorunmaqdadır. Yaponiyanın təqdim etdiyi nominasiya heç bir düzəliş edilmədən UNESKO-nun siyahısına salınıb.

Laos Xalq Demokratik Respublikasının təqdim etdiyi nominasiya "Megalittich Jar Sites of Xienghuang" ərazisi ilə bağlı olub. Məruzəçi düzəlişlə bağlı təklifin olmadığını bildirib və ərazi irs siyahısına salınıb. Laosun nümayəndəsi siyahıya daxil edilən hər bir nümunənin ümumdünya mədəni irsinin bir parçası olduğunu bildirib. O, Azərbaycan dövlətinə təşəkkür edərək Bakı şəhərinin əsrarəngiz gözəlliyindən bəhs edib.

Günün ikinci yarısında sessiyada əvvəlcə ICOMOS Myanmanın "Bagan" nominasiyasını təqdim edib. Bildirilib ki, Myanmada yerləşən Bagan məbədi buddistlərin tarixi məkanıdır. Ərazidə 3595 abidə yerləşir. 1975-ci və 2016-cı illərdəki zəlzələ nəticəsində buradakı bir neçə abidəyə zərər dəyib. Üzv ölkələrin fikirləri dinlənildikdən sonra "Bagan" nominasiyası UNESKO-nun Dünya İrs Siyahısına salınıb.

Sonra Koreya Respublikasının Seovon Akademiyası ilə bağlı nominasiya barədə geniş məlumat verilib. Bildirilib ki, bu akademiya XVI-XVII əsrlərdə fəaliyyət göstərib və böyük tarixi ənənə yaradıb. Bu ənənə bu gün müasir təhsil sisteminin də inkişafında mühüm rol oynayır. Akademiya müasir Konfutsi təhsil sisteminin formalaşmasına güclü təsir göstərib. Müzakirələrdən sonra Koreya Respublikasının təqdim etdiyi fayl UNESKO-nun siyahısına daxil edilib.

Müzakirəyə çıxarılan Avstriyanın "Alp dağları yolu" nominasiyası bəzi çatışmazlıqlar səbəbindən qəbul edilməyib. Üzv dövlətlərin nümayəndələri fayla bəzi dəyişikliklərin olmasını zəruri hesab edərək öz tövsiyələrini veriblər.

Sonra Avstriya, Almaniya, Macarıstan və Slovakiyanın təqdim etdiyi "Qədim Roma sərhəd xətti" faylı müzakirə olunub. Bu fayl da bəzi nöqsanlar səbəbindən təsdiq edilməyib.

Kanadanın "Daşlar üzərində yazı" nominasiyasının müzakirələri zamanı bu ərazidə aborigen əhalinin adət-ənənələrinin qorunması ilə bağlı fikirlər səslənib. Çin, Tunis, Avstriya, Avstraliya bu nominasiyanı dəstəkləyib və bu ərazidə qaradərili sakinlərin linqvistik hüquqlarının qorunmasına xidmət etdiyi vurğulanıb. Fayl qəbul edildikdən sonra ərazinin qaradərili icmasının nümayəndəsi nominasiya ilə bağlı əlavə addımların atılacağını diqqətə çatdırıb. O, ərazinin qədim mədəni irsinin gələcək nəsillərə çatdırılması üçün atılan bu addıma görə komitəyə minnətdarlığını bildirib.

Növbəti fayl Almaniya və Çexiyanın birgə hazırladığı Erzgebirde Kruştohoni məbədi ilə bağlı olub. Bildirilib ki, 2004-cü ildə bu nominasiya müzakirəyə çıxarılsa da, sonradan geri götürülüb. Sonradan hər iki ölkənin ərazisini əhatə edən bu məbədlə bağlı geniş iş aparılıb. 800 ilə yaxın tarixi olan bu məbəddə ötən dövr ərzində böyük dəyişikliklər olub. 22 bölmədən ibarət bu nominasiya da müzakirə olunduqdan sonra qəbul edilib.

Çexiyanın təqdim etdiyi "Kladrubi və Labem mərasim atlarının təlimi və yerləşdirilməsi" nominasiyası barədə məlumatda bildirilib ki, bu, Habsburq imperiyasının XVI əsr fermer təsərrüfatına aid bir fayldır. Bu ərazi Avropada atçılığın inkişafına öz təsirini göstərib. Müzakirələrdən sonra nominasiya qəbul edilib.

Sonra Almaniyanın hazırladığı "Auqsburq su idarəetmə sistemi" nominasiyası müzakirəyə çıxarılıb. Yeddi əsrdən çoxdur ki, bu sistemdən istifadə edildiyi bildirilib. Fayl 22 elementdən ibarətdir. İkinci Dünya müharibəsi zamanı sistemə müəyyən zərər dəysə də, sonradan bərpa edilib. Müzakirələrdən sonra Almaniyanın təqdim etdiyi fayl UNESKO-nun Dünya İrs Siyahısına salınıb.

Polşanın "Krzemionki qədim tarix mədən regionu" nominasiyasının müzakirəsində ICOMOS-un verdiyi tövsiyələr dinlənilib. 78 hektar ərazini əhatə edən mədən sistemi tarixi baxımdan da əhəmiyyətli hesab olunub. Polşanın nominasiyası ilə əlaqədar üzv ölkələrin əlavələri, tövsiyələri dinlənilib. Müzakirələrdən sonra fayl qəbul edilib.

Sessiya işini bu gün davam etdirəcək.

# Ümumdünya İrs Komitəsinin Bakı sessiyası çərçivəsində növbəti panel iclaslar təşkil edilib







İyulun 6-da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində növbəti panel iclaslar təşkil edilib.

AZƏRTAC xəbər verir ki, ilk iclas Afrika qitəsi üzrə dünya irs nümunələrinin nominasiyalarının hazırlanması mövzusuna həsr olunub. İclasda Ümumdünya İrs Mərkəzinin ekspertləri, Afrika Dünya İrs Fondunun əməkdaşları, Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) və Çinin UNESKO üzrə Milli Komissiyasının nümayəndələri, Sinxua Universitetinin Milli İrs Mərkəzinin üzvləri iştirak ediblər.

Müzakirə olunan mövzuda çıxış edənlər qitənin bəşər sivilizasiyasının ilkin dövrünə aid zəngin mədəni irs nümunələrinə malik olduğunu qeyd ediblər. Bildiriblər ki, nominasiya prosesi zamanı mədəni irs nümunələrinin mühafizəsi səviyyəsinin qiymətləndirilməsi mühüm rol oynayır.

Astronomiya və texnologiya elmi irsi üzrə tematik təşəbbüsün icrasına həsr olunmuş növbəti iclasda Böyük Britaniya və İspaniya ekspertlərinin ən yaxşı təcrübələrinə dair təqdimat nümayiş etdirilib.

Sonra aerokosmik, astronomik və kosmik texnoloji elmi irsin qorunub saxlanılması, eləcə də 2018-ci ildə Londonda elm və texnologiya üzrə işçi qrupun tövsiyələrindən irəli gələn məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Plenar iclaslar müzakirələrlə davam edib.

# Ən islahatçı PREZİDENT

Əvvəli 1-ci səh.

Şəhid ailələrinə istisnasız olaraq birdəfəlik müavinətlərin verilməsi, bu kateqoriyaya aid insanlara müavinətin 242 manatdan 300 manata, həmçinin Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata yüksəldilməsi, məcburi köçkünlərə verilən aylıq müavinətlərin 50 faiz qaldırılması bunun təzahürüdür.

Mart ayında imzalanan digər fərman və sərəncamlara əsasən 14 kateqoriya üzrə sosial müavinətlər, 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artdı. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz çoxaldı, şəhid ailələri, müharibə veteranlarına verilən müavinətlər yüksəldildi.

Minimum əməkhaqqının 40 faiz artaraq 130 manatdan 180 manata çatdırılması, minimum pensiyaların 38 faiz artaraq 116 manatdan 160 manata qədər qaldırılması, 100 minə yaxın tələbənin təqaüdünün yüksəldilməsi də təsdiq etdi ki, Azərbaycanın iqtisadi qüdrəti getdikcə yüksəlir. Bu isə ölkə əhalisinin rifah halının daha da yaxşılaşdırılması istiqamətində atılan addımların daha da intensivləşəcəyindən xəbər verir.

Elə dövlət başçısı da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu məsələyə toxunarkən bildirmişdi ki, iqtisadi göstəricilər artdıqca sosial məsələlərin həllinə daha çox diqqət yetiriləcək, pensiya və sosial müavinətlər artacaq: *"Bu il maaşlar, pensiyalar artırıldı və bu proses davam etdiriləcək. Mən bildirmişəm, biz bu məsələni daim diqqətdə saxlayırıq. Qeyd etdim ki, son 15 il ərzində maaşlar və pensiyalar dəfələrlə artıb. Ancaq bu, bizi tam qane edə bilməz. Ona görə bundan sonra da minimum əməkhaqqı, minimum pensiya və digər sosial müavinətlərin artırılması nəzərdə tutulur. İmkan daxilində biz bunu edəcəyik"*.

### 4 ayda pensiya və əməkhaqqı iki dəfə yüksəldi

Əhalinin sosial rifahının yüksəlməsinə maliyyə imkanı yarandı və Prezident iyunun 18-də bu istiqamətdə 17 sərəncam imzaladı. Bu sərəncamlar bu məsələnin İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq etdi.



Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədilə Prezident tərəfindən minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq 250 manata çatdırılır. Minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu ilin sentyabr-dekabr ayları üzrə 245 milyon manat əlavə vəsait ayrılacaq. Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verəcək. Beləliklə, oktyabr ayının 1-dən etibarən minimum aylıq əməkhaqqı 180 manatdan 250 manata, pensiyaların minimum məbləği 160 manatdan 200 manata çatdırılacaq. Dövlət qulluqçularının aylıq vəzifə maaşları 50 faiz, hərbi və hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqları 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşları orta hesabla 40 faiz artacaq.

Yeni sərəncamlarla 1 milyon 350 min insanın əməkhaqqısında ciddi artımlar olacaq. Minimum pensiya məbləğinin artırılması ümumilikdə 660 min pensiyaçını əhatə edəcək. Əməkhaqqının məbləğinin 180 manatdan 250 manata çatdırılması ilə ölkədə minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) 40 faizədək üstələyəcək. Pensiyaların minimum məbləği oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılacaq. Bu, təxminən 25 faiz artım deməkdir. Artımın edilməsi üçün illik 216 milyon manat, cari il (oktyabr-dekabr ayları) üzrə 62 milyon manat əlavə vəsait yönəldiləcək.

Bu artımlardan sonra Azərbaycan minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə MDB ölkələri arasında 2-ci yerdə qərarlaşacaq. Göründüyü kimi, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur.

Bundan başqa, uğurlu islahatlar Azərbaycanın beynəlxalq nüfuzunu getdikcə artırır, etibarlı tərəfdaşlarının sayını çoxaldır və ölkəyə investisiya axınını daha da sürətləndirir.

Bütün bunlar isə onu deməyə əsas verir ki, 2019-cu ilin qalan dövrü ərzində daha böyük sosial-iqtisadi uğurların şahidi olacağıq. Elə dövlət başçısı da bu ili dəyərləndirərkən demişdi ki, əgər 2017-ci il iqtisadi sabitləşmə, 2018-ci il dərin iqtisadi islahatlar ili olubsa, 2019-cu il həm sosial islahatlar ili, həm də iqtisadi artımın yüksək templərlə təmin ediləcəyi dövr kimi tarixə yazılacaq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Əhalinin məşğulluğunun təminatı dövlətin sosial siyasətində prioritet istiqamət olaraq qalır

## Ölkədə sosial müdafiə məsələlərinin həllinə yeni yanaşma tətbiq ediləcək

Əvvəli 1-ci səh.

Başqa sözlə, əhalinin məşğulluq probleminin həlli dövlətin qarşıya qoyduğu prioritetlərdən biri olaraq qalır. Bunu təsdiqləyən faktlardan biri Prezident İlham Əliyevin 30 oktyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının məşğulluq strategiyası"dır.

Azərbaycan dövləti ölkədə məşğulluq siyasətinin bundan sonrakı hədəflərini uzaqgörənliklə müəyyən edib. Hazırda bu sahədə atılan məqsədyönlü addımlardan biri özünüməşğulluq proqramının həllidir. Bu proqram geniş vüsət aldıqca əhalinin işlə təminatı məsələsinə böyük kömək göstərəcəyinə inam daha da artır.

Dövlət həmişə çətin vəziyyətdə yaşayan vətəndaşlara qayğı və diqqət göstərir. Ünvanlı sosial yardım proqramlarının icra edilməsi buna əyani misaldır. Lakin dövlət həm də ehtiyaclarını ödəmək üçün hər bir ailənin özünün imkanlarının yaranmasına çalışır. Özünüməşğulluq da məhz maddi çətinliyi olan ailələrin özlərinə yaxşı dolanışıq şəraiti yaratmağa imkan verir.

Dövlət orqanları, yerli icra orqanları və özəl qurumların bu istiqamətdə layihələr həyata keçirmələri qarşıya məqsəd kimi qoyulub. Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə.

Özünüməşğulluq aztəminatlı ailələrin sosial yardım proqramından asılılığının aradan qaldırılmasına və kiçik biznesə çıxışına imkan yaradır. Təqdirəlayiq haldır ki, bu proqramın əhatə dairəsi 2018-ci ildə 2017-ci ilə nisbətən 6,5 dəfə genişləndirilib. Özünüməşğulluğa 7267 nəfər cəlb edilib. Onların əksəriyyəti əlillər, sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri, məcburi köçkünlər, şəhid ailələrinin, eləcə də ünvanlı sosial yardım alan ailələrin üzvləri və digər həssas qruplardan olan şəxslərdir. Cari ildə sözügedən proqrama cəlb olunanların sayının 10 minə çatdırılacağı nəzərdə tutulub.

Qeyri-neft sektorunun aparıcı sahəsi olan kənd təsərrüfatında özünüməşğulluğun inkişafı üçün xüsusilə geniş imkanlar var. Çünki bu sahə çoxşaxəlidir. Kənd yerlərində insanlar ailələri ilə birlikdə heyvandarlıqla, quşçuluqla, arıçılıqla, bağçılıqla, tərəvəzçiliklə məşğul olurlar. Dövlət də onlara maddi dəstək verir. Başqa sözlə, özünüməşğulluğa diqqətin artırılması belə insanlara öz fəaliyyətlərini genişləndirmək üçün münasib şərait yaradır.

Heydər Əliyev Fondu bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə böyük dəstək verib. "Sosial bağlar" layihəsi çərçivəsində 125 ailə üçün bağçılıq təsərrüfatları yaradılıb.

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında özünüməşğulluq barədə ətraflı bəhs edilmişdir. Prezident İlham Əliyev bu barədə demişdir: "İş yerlərinin yaradılması üçün, əlbəttə ki, vacib amillərdən, vasitələrdən biri özünüməşğulluq proqramıdır. Biz buna da başlamışıq. Bu proqram çox böyük rəğbət qazanıb. Biz hər il özünüməşğulluq proqramı çərçivəsində təqribən 7 minə yaxın insanı işə cəlb etmək fikrindəyik. Ancaq yerlərdən gələn sifarişlər qat-qat çoxdur. Bunu biz nəzərə almalıyıq və öz planımıza düzəlişlər etməliyik. Bu, əlbəttə ki, təkcə maliyyə vəsaiti tələb edən məsələ deyil, burada bir çox texniki məsələlər, vasitələrin alınması var, ondan sonra, nəzarət mexanizmi tətbiq edilməlidir".

Belə ki, bəzən vətəndaşlar müəyyən vasitələrlə təmin olunandan sonra onlardan səmərəli istifadə edə bilmir, imkanlardan bəhrələnmirlər. Ona görə də dövlət başçısı həmin insanlara faydalı tövsiyələrin verilməsini, treninqlər keçirilməsini, eyni zamanda, onların işinə nəzarət edilməsini tapşırmışdır.

Azərbaycanda özünüməşğulluğu inkişaf etdirmək üçün hərtərəfli şərait və imkan var. Lakin bu sahədə təcrübə az olduğundan dövlət həm də aparıcı beynəlxalq maliyyə qurumları, məsələn, Dünya Bankı və digər banklarla əməkdaşlığı genişləndirməyi nəzərdə tutur. Prezident İlham Əliyev həmin qurumların rəhbərləri ilə görüşlər zamanı bu məsələnin də qaldırıldığını və maraqların qarşılıqlı olduğunu bildirmişdir: "Biz onları cəlb etməliyik. Bizim indi maliyyə imkanlarımız var. Çünki biz bu işə təzə başlamışıq, onlar isə dünyanın müxtəlif yerlərində bu proqramı təşviq edirlər. Ona görə özünüməşğulluq proqramına daim diqqət göstərilməlidir. Mən bu mövzu ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Məhz ona görə ki, bu, vacib məsələdir".

Azərbaycanda özünüməşğulluq proqramının həm məşğulluq, həm iqtisadi inkişaf, həm də məhsul istehsalının artımı baxımından çox böyük gələcəyi var.

***Flora SADIQLI, "Azərbaycan"***

# Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfə yüksək qiymətləndirilir

Əvvəli 1-ci səh.

Plenar iclasda dini tarixi-memarlıq abidələrinin qorunub saxlanılması ilə bağlı müzakirələr böyük maraqla aparıldı. Çıxış edənlər öz ölkələrində bu abidələrin mühafizəsi və bərpası sahəsində görülən işlərə toxundular. Bildirildi ki, həmin abidələr tarixiliklə yanaşı, o ölkənin dini inanclarını da ifadə edir. Mənəvi baxımdan bu abidələrin qorunması və gələcək nəsillərə ötürülməsi zəruri əhəmiyyət kəsb etdiyi üçün xüsusi vurğulanmışdır.

Sessiya iclaslarının gedişində Çin, İndoneziya, Tunis, Zimbabve, Küveyt və digər ölkələrin nümayəndələri çıxış edərək Katmandu vadisindəki abidələr barədə fikirlərini söyləmişlər. Bildirilmişdir ki, 2015-ci ildə Nepalda baş verən güclü zəlzələ zamanı ölkədə tarixi abidələrə xeyli ziyan dəyib və onlar dağılmaq təhlükəsi ilə üzləşib.

Çıxış edən bəzi ölkələrin nümayəndələri Məşvərət Şurasından Katmandu vadisinin Təhlükəli Vəziyyətdə olan Abidələrin Siyahısına salınmasını təklif etmişlər. Orada 40-a yaxın tarixi abidələr var.

Nepal nümayəndəsi tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirərək Katmandu vadisindəki tarixi abidələrin vəziyyəti və burada görülən işlər barədə məlumat vermişdir. Həmçinin Pakistanın Lahor şəhərindəki tarixi abidələr, Fort və Şalamar bağları ilə bağlı müzakirələr aparılmışdır. Məlum olmuşdur ki, yerli hökumətin çəkmək istədiyi metro xətti şəhərdəki tarixi abidələrə ciddi zərər vura bilər, eyni zamanda Fort və Şalamar bağlarında yaşıllıqların məhvi fauna və floraya mənfi təsir göstərər.

Çıxışlar zamanı Pakistanın nümayəndəsi bildirib ki, cari ilin aprelində beynəlxalq missiyanın iştirakı ilə əraziyə baxış keçirilib. Tövsiyə olunan məsələlərin bir hissəsi artıq öz həllini tapıb, digərlərinin də həyata keçirilməsi davam etdiriləcək.

Müzakirələr zamanı Azərbaycanın Pakistanla bağlı hesabata əlavə etdiyi dəyişikliklər müsbət qarşılanmışdır. Müzakirələrin nəticəsi olaraq, Pakistan hökumətinə əlavə vaxt verilmişdir.

Sessiya iclaslarında müzakirə olunan məsələlər sırasında Asiya-Sakit okean regionunda yerləşən Çin, Şri-Lanka, Tailand, Yaponiya, Özbəkistan, İndoneziya, Banqladeş, Nepal və digər ölkələrdə aparılan işlərin tarixi irsə mənfi təsirləri açıqlanıb. Habelə, Özbəkistanın Səmərqənd şəhərində yaradılmaqda olan turizm zonası ilə bağlı bəzi abidələrin vəziyyətinin narahatlıq doğurduğu diqqətə çatdırılıb. Müzakirələr zamanı Səmərqənd şəhərinin qədim hissəsində hotellərin tikintisinin dayandırılması və konservasiya işlərinin gücləndirilməsi qərara alınıb. Burada Bolqarıstanın qədim liman şəhəri Nesebırqin konservasiya tədbirlərini gücləndirmək tövsiyə edilib. Sessiyanın gedişində Orta Reyn, Monteneqro, Kiji (Rusiya), Diyarbəkir meşəsi (Türkiyə), Buda qəsri (Macarıstan) və digər məsələlərə dair qərar layihələri müzakirəsiz qəbul edilib.

Üzv ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilən növbəti iclasda büdcə məsələlərinə də toxunulub. İclasda 180 ölkənin mədəni irsin qorunmasına ayrılan maliyyə vəsaitləri və xərcləri nəzərdən keçirilib, işçi qrupların hesabatları dinlənilib.

Dünya mədəni irsinin qorunması yollarının Bakıda müzakirə edilməsi, ölkəmizin bu kimi beynəlxalq tədbirə evsahibliyi etməsi Azərbaycanın dünyada artan nüfuzundan xəbər verir. Bu, həm də dünya ictimaiyyətinə bir mesaj kimi səslənir ki, Azərbaycan sülh, tərəqqi və inkişafda olan ümumbəşəri ideyalarla yaşayan bir ölkədir. UNESKO-nun tarixi və mədəni abidələrin Dünya İrs Siyahısına salınmasının Bakıda müzakirələrdən keçirilməsi tarixi əhəmiyyətə malikdir. 2500-dən çox nümayəndənin iştirakı və tədbirin yüksək səviyyədə təşkili ölkəmizin bu bəşəri işə diqqətinin göstəricisidir. Sessiya iclaslarında dəfələrlə vurğulandı ki, Azərbaycan mədəniyyətlərarası dialoqa yüksək töhfə verir.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının iştirakçısı, Litvanın UNESKO-dakı daimi nümayəndəliyinin rəhbəri İrena Vaisvilayte müxbirimizlə söhbətdə Bakıda olmaqdan məmnunluğunu ifadə edib: "Ölkə rəhbəri İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm. Burada olduğum müddətdə şəhərinizdəki quruculuq işlərinə və müasirliyə vuruldum. Dağüstü Parkın, Dənizkənarı bulvarın gecələri çox romantik olur. İçərişəhəri gəzdim, Şirvanşahlar sarayında, Xalça Muzeyində, Atəşgah məbədində, Yanardağ qoruğunda oldum. Ölkənizin qədim tarixə malik olduğunu eşitsəm də bunu gördüm və bu irsin milli səviyyədə mühafizə edilməsinə dövlət qayğısı məndə məmnunluq doğurdu".

Dünya dövlətlərinin, mədəni irsin qorunması və təbliği ilə məşğul olan təşkilatların, siyasətçilərin, ümumbəşəri ideyalarla yaşayıb-yaradan bu sahənin araşdırıcılarının diqqət mərkəzində olan UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası Bakıda öz işini uğurla davam etdirir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Məcburi köçkünlər üçün 104-cü müasir yaşayış kompleksi

## Prezident İlham ƏLİYEV: "Genişmiqyaslı işlər aparılır ki, tezliklə bütün köçkünlər yaxşı şəraitlə təmin olunsunlar"

Bakının Pirallahı rayonunda tikilmiş yeni yaşayış kompleksi düşmən əli ilə yurd-yuvasından didərgin salınmış 306 məcburi köçkün ailəsinə sevinc və rahatlıq gətirib. Odur ki, kompleksin istifadəyə verilməsi əlamətdar hadisəyə çevrildi. Mərasimdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etdilər və bu, hadisənin önəmini qat-qat artırdı.



Yeni kompleks üç doqquzmərtəbəli binadan ibarətdir ki, bunlardan da biri 162, ikisi 72 mənzillidir. Elektrik, qaz, su, istiliklə təchiz olunması, suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulması burada müasir bir kompleksin inşa edildiyini göstərir. Daha bir əhəmiyyətli fakt yaşayış kompleksinə məktəb binasının da daxil olmasıdır. Ümumiyyətlə, burada bütün zəruri infrastruktur yaradılıb.

Yeni binalarda yüzlərlə məcburi köçkünün rahat yaşayışı təmin olunub ki, bu da ölkə əhalisinin həmin həssas təbəqəsinə Azərbaycan dövlətinin daim diqqət və qayğı göstərdiyini təsdiqləyir. Bu, məcburi köçkünlər üçün salınan 104-cü müasir yaşayış kompleksidir. 12 il əvvəl sonuncu çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün ümumi yaşayış sahəsi 3,5 milyon kvadratmetr olan qəsəbələr və çoxmərtəbəli evlərdən ibarət yaşayış kompleksləri tikilib. Keçən ilin sonunadək 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Təkcə 2018-ci ildə 5923 məcburi köçkün ailəsinə yeni mənzillər verilib. Bu ilin ilk üç ayında isə 2227 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunub.

Yeri gəlmişkən, Qaradağ rayonunda da artıq 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, Sabunçu rayonunun Ramana qəsəbələrində məcburi köçkünlərə 470 mənzil təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzil Binəqədi rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinə verilib. Sumqayıtda da 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş binaların açılışı olub. Bu mühüm tədbirlərin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətləri misilsizdir.

Pirallahıda yaşayan məcburi köçkünlərin əksəriyyəti Laçın rayonundandır. İstifadəyə verilən yeni kompleksin açılış mərasimində Prezident İlham Əliyev bunu vurğulayaraq dedi: "Burada, Pirallahı rayonunda köçkünlər uzun illərdir ki, yaşayırlar. Köçkünlərin əksəriyyəti Laçın rayonundandır. Laçın rayonu 1992-ci ilin may ayında işğal altına düşmüşdür. Laçın və Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında əlaqə yaratdı. Ulu Öndər Heydər Əliyevin səyləri nəticəsində Ermənistanın işğalçı siyasətinin qarşısının alınması üçün böyük səylər göstərilmişdir. Uğurlu Horadiz əməliyyatı aparılmışdır. Beləliklə, Azərbaycan işğal olunmuş torpaqların bir hissəsini azad edə bilmişdir. Sonrakı dövrlərdə ordu quruculuğu istiqamətində böyük işlər görüldü. Bu işlərin nəticəsində 2016-cı ildə torpaqlarımızın bir hissəsi də işğalçılardan azad edildi. Ərazi bütövlüyümüzün bərpası bizim üçün əsas məsələdir".

Laçınlı məcburi köçkün Cəbrayıl Heydərov dövlət başçısına və Mehriban xanım Əliyevaya minnətdarlığını bildirdi. Qeyd etdi ki, məcburi köçkünlərin həm də məşğulluq probleminin həllinə böyük diqqət göstərilir. Son dövrlərdə Pirallahı rayonunun xüsusilə inkişaf etməsi bunun üçün əlverişli imkan yaradır:

- Mən Pirallahı rayonunda sahibkarlıq fəaliyyəti ilə məşğul oluram. Cənab Prezident, sahibkarlıq fəaliyyətinə başlayanda cəmi iki nəfər işçimiz olub. Bu gün 50-yə yaxın işçimiz var. Biz işimizlə xalqımıza, dövlətimizə xidmət etməyə çalışırıq. Sizin dəstəyiniz, xüsusilə son illərdə verdiyiniz sərəncamlar, fərmanlar, sahibkarlara göstərdiyiniz diqqət və qayğı nəticəsində biz Pirallahı rayonunda sahibkarlıq fəaliyyəti ilə - bunu tam səmimiyyətlə deyirəm, cənab Prezident - heç bir maneə olmadan tam sərbəst məşğuluq. Rayonda da bizim üçün geniş şərait yaradılıb. Qarşımızda duran əsas məqsəd ölkəmizin idxaldan asılılığını azaltmaq, yeni iş yerləri yaratmaq, insanların həyat şəraitini yaxşılaşdırmaqdır".

Məcburi köçkün Kəmalə Musayeva isə dedi: "Hörmətli Mehriban xanım, biz çox yaxşı xatırlayırıq ki, siz Birinci vitse-prezident təyin olunandan sonra ilk müşavirənizi məhz məcburi köçkünlərin və qaçqınların sosial problemlərinə həsr etdiniz, Siz xeyirxah, nəcib əməllərinizlə bizim xalqımız, vətənimiz üçün seçilmişlərdənsiniz. Bunun üçün biz sizə çox minnətdarıq".

Pirallahı görüşlərində bir daha qeyd edildi ki, məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması davamlı xarakter daşıyır. Hələ də ağır vəziyyətdə yaşayan köçkünlərin problemlərinin həlli gündəlikdə dayanan əsas məsələlərdəndir. Onların da şəraitinin tezliklə yaxşılaşdırılması üçün genişmiqyaslı işlər aparılır.

***F.SADIQLI, "Azərbaycan"***



# İmadəddin Nəsimi - 650
## Cahana sığmayan mütəfəkkir şair



Klassik irsimiz




Xar içində bitən qönçə gülə minnət eyləməm,
Ərəbi, farisi bilməm, dilə minnət eyləməm.
Sirat-i müstəqim üzrə izləyərəm Rahimi
İblisin təlim etdiyi yola minnət eyləməm.

Bir əcaib dərdə düşdüm, hər kəs gedər karına,
Bu gün buldum - bu gün yerim, Haq kərimdir yarına,
Zərrəcə tamahım yoxdur bu dünyanın varına
Ruzimi verən Xudadır, qula minnət eyləməm...

Ey Nəsimi, can Nəsimi ol qəni mehman ikən,
Yarın şəfaətlərim əhmədi-muxtar ikən,
Cümlənin ruzisin verən ol qəni səttar ikən
Yeryüzünün xəlifəsi hünkara minnət eyləməm.

❖❖❖

Dərdü qəm ilə yandı könül, yar bulunmaz,
Çox darü diyar istədi, dəyyar bulunmaz.

Yaram, deyici çoxdurur, amma bəhəqiqət,
Fürsət gəlicək, yari-vəfadar bulunmaz.

Adət budurur kim, dili dildara verərlər,
Dil getdi əlimizdənü dildar bulunmaz.

Neçə kişilər də'viyi-islam edər, amma
Tək arada bir xaç ilə zünnar bulunmaz.

Hər bihünər, insafı yox uş mənsəbi tutdu,
Sahibhünərə mənsəbi-idrar bulunmaz.

Hər kişidə bir cübbəvü dəstar olur, amma
Min başda biri layiqi-dəstar bulunmaz.

Çün çərxi-fələk cahilü nadan sevər oldu,
Pəs lacərəm uş fəzlə xəridar bulunmaz.

Tərrar gər aparsa qamu rəxti rəvadır,
Çün qafilədə bir kişi bidar bulunmaz.

Xəlqin əməli azdı, könül yıxıcı öküş,
Bir xəstə könül yapıcı me'mar bulunmaz.

Var, dərdə təhəmmül qılü səbr eylə cəfaya,
Çün dil diləyi əndəkü bisyar bulunmaz.

Zərq işi, riya üştə kasad eylədi fəzli,
Elm əhlinə bir rövnəqi-bazar bulunmaz.

Var özüni faş etmə, Nəsimi, kişiyə kim,
Aləmdə bu gün məhrəmi-əsrar bulunmaz.

❖❖❖

Üzün müshəfdir, ey huri, yanağın qaf-vəl-Qur'an,
Budur həqdən gələn taha, budur yasinü ərrəhman!

Gün ilə ayı göglərdən gətirdi səcdəyə hüsnün,
Zəhi qüvvət, zəhi qüdrət, zəhi mö'cüz, zəhi bürhan!

Dodağın abi-heyvandır, mən anı sormuşam Xızra
Və lakin abi-heyvanı qaçan idrak edər heyvan?

Yedi gəz həq nə mə'nidən buyurdu səcdə şeytana,
Sən anı bil nə şeydənsən ki, anı bilmədi şeytan?

Qaşınla kirpigin, yarəb, nə fəttan yayü oxdur kim,
Fələkdir tirinə tərkəş, mələkdir yayına qurban?

Sən ol pakizə cövhərsən bu gün aləmdə, ey dilbər,
Dodağın abi-heyvandır, camalın rövzeyi-rizvan.

Səqahüm rəbbihüm xəmri ləbi-lə'lin şərabıdır,
Bu meydən məst olan bildi ki, həqdir mən əleyha fan.

Utanır arifin əqli, sana insan deməz, neçün
Ki, insandır deməz kimsə sana, ya xaliqül-insan!

Rüxün inna fətəhnadır, saçın vəlleyl-qəd-əfləh,
Bu lövhün əbcədin gör kim, qomuş həqq adını fürqan.

Həqə əyri baxan gözdən camalın yaşıran dilbər,
Götürdü pərdə üzündən gəl, ey zahid, gətir iman!

Təcəllinin çırağıdır camalın şəm'i, uş gör kim,
Necə nurü ziyasından münəvvər mehrü məh taban.

Bitibdir qisseyi-Şirin, tükəndi Şəkkərin dövrü,
Ləbin dövranıdır gəlgil ki, sənsən Xosrovi-dövran!

Nə dəryadır əcəb eşqin ki, yoxdur həddü payanı,
Zəhi eşqi nəhayətsiz, zəhi dəryayi-bipayan!

Nəsimi çün vüsalından həyati-sərmədi buldu,
Yəqindir gər desəm həqdir kim, oldu həyyü cavidan.

❖❖❖

Var bu cahandan özgə bizim bir cahanımız,
Surət bu aləm oldu bizə, ol məkanımız.

Zatına həyyü baqi demişlər bu cövhərin,
Şol kim, bizim-cahanımız olmuş bu canımız.

Ey də'vət eyləyən bizi firdövsə, eylə bil,
Cənnətdən özgə vardurur ə'la məkanımız.

Cövhər ki, dutdu aləmi rövşən günəş kimi,
Andandır aşikara bu gənci-nihanımız.

Cövhərləri zühura gətirdi çü nitqi-həq,
Gör kim, nə feyzə gəldi yenə bəhrü kanımız.

Ol kim, bizim həqiqətimizdir xəyalımız,
Yoxdur nişanı qılca, nə bilsin nişanımız.

Sən bu Nəsiminin dilini anla, bil sözün
Kim, var bu dildən özgə bizim bir lisanımız.

❖❖❖

Dinləgil bu sözü ki, candır söz,
Aliyü asimanməkandır söz.

Şeş cəhətdən münəzzəh anlavü bax,
Şöylə kim, xaliqi-cahandır söz.

Nazilü münzil anla kim, birdir,
Kəndi kənduyə tərcümandır söz.

Tulü ərz ilə ümqü bulunmaz
Yə'ni bihəddü binişandır söz.

Bu hədisə nəzər qıl, ey aqil,
Anlayasan ki, bigümandır söz.

Ərşi-rəhman dedi nəbi könülə,
Çünki gördü, könüldə kandır söz.

Dedi ya kafüha, əyzə-bikə,
Çün Əli bildi, müstəandır söz.

Qeyri-məxluqdur, nə demək olur,
Anla kim, imdi rayigandır söz.

Əqli-küll ərşü kürsü, lövhü qələm,
Çar ünsür, nöh asimandır söz.

Zahirü batin, əvvəlü axir,
Aşikaravü həm nihandır söz.

Ey üqulu nəsəb edən isbat,
Qamuya söz de kim, hamandır söz.

Kafü nundan vücuda gəldi cahan,
Əgər anlar isən, əyandır söz.

İsiyi-pak, Adəmü Əhməd,
Mehdiyi-sahibəz-zəmandır söz.

Bu bəyanı dilərsən anlayasan
Kim, necəsi filan-filandır söz.

"Cavidannamə"yi gətirgil ələ,
Ta biləsən ki, nəsnə candır söz.

Sözə bu izzü cah yetməzmi,
K'aydalar Fəzli-qeybdandır söz.

Aqil isən sözünü müxtəsər et,
Ey Nəsimi, çü bigirandır söz.

❖❖❖

Ey əzəli can ilə cananımız!
Eşqi-rüxündür əbədi şanımız.

Kə'bə üzündə bizə, ey Fəzli-həq,
Zülfü rüxün qibləvü imanımız.

Vəchinə yazdı otuz iki hüruf,
Hikmət ilə münşiyi-ərkanımız.

Surəti çün əhsəni-təqvim imiş,
Səndə zühur eylədi sübhanımız.

"Səvvərəkəllahü əla şəklihi"
Üştə nəbinin sözü bürhanımız.

Mö'minə həq dünyanı zindan dedi,
Möminə çox qalmaya zindanımız.

Uymadı arif sözünə vaizin,
Divə müti' olmadı insanımız.

Əvvəlü axırda üzündür, üzün,
Sün'i-xuda, qüdrəti-yəzdanımız.

Kim ki, sücud eyləmədi hüsnünə,
Divi-lə'in olduvü şeytanımız.

Can necə tərk eyləsin, ey can, səni,
Çünki canın canısan, ey canımız!

Pərdə üzündən götür, ey surətin
Fəzli-ilahi ilə rəhmanımız.

Eynimə sənsiz tikan oldu cahan,
Qandasan, ey tazə gülüstanımız?

Ta biləsən kim, necədir, ey fəqih,
Adəmi-xaki ilə ehsanımız.

Hüdhüdü Bilqeysə rəsul eylədi,
Naməni göndərdi Süleymanımız.

Cövr ilə yandırdı Nəsimiyi dust,
Həm bu idi dust ilə peymanımız.

# Nəsimi və türkdilli hürufi irsi

**Müsəlman ölkələri içərisində İmadəddin Nəsimi ən çox Azərbaycanda öyrənilir və təbliğ edilir. Bu, bir tərəfdən onun vətənimizdə doğulması, Şirvan ədəbi məktəbinə məxsus olması ilə bağlıdır. Lakin başqa tarixi səbəblər də var. Nəsiminin ana dilində divanı hələ 1926-cı ildə Bakıda Salman Mümtazın tərtibində çap olunub. Kitabın çapına Bolşevik Maarif Komissarlığı maliyyə vəsaiti ayırıb. O zaman 1920-ci dərs ilindən yaradılmış azərbaycandilli orta və ali təhsil müəssisələri üçün anadilli mətnlər çatmırdı.**

Bu nəşr Nəsimi irsinin xalqa çatdırılması istiqamətində bir mərhələ açdı.

XIX əsrdə Cənubi Azərbaycanda Füzuli divanı ana dilində dəfələrlə çap olunurdu. Amma Nəsimiyə münasibətdə bu, müşahidə edilmirdi. Halbuki dilinin sadəliyi və xəlqiliyi cəhətdən Nəsiminin müəyyən məziyyətləri aşkar idi. Bunun səbəbi dahi şairin məxsus olduğu təriqətlə və bu təriqətin onun şeirlərində güclü ifadəsi ilə bağlı idi. İran ruhaniləri hürufi mətnlərini həm də fars dilində oxuyurdular. Məlumdur ki, hürufiliyin bir məzhəb kimi dili farscadır və bu, onların Quranı sayla bilən və Fəzlüllahın (1340-1394) özü tərəfindən 1374-cü ildə yazılmış "Cavidannamə"də təsdiqlənib. Bəzi ruhanilər hürufi mətnlərini, "Cavidannamə"ni orijinalda oxuyub rəsmi islamla tam uyğun gəlməyən məqamlar tapır və bunlardan hürufiliyə qarşı qısqanclıq niyyəti ilə istifadə edirdilər. Belə hallar Osmanlı dövləti ərazisində də var idi.

❖ ❖ ❖

Bütün bunlara görə Nəsiminin türk divanının 1926-cı il Bakı nəşri təkcə şairə münasibətdə yox, bütünlükdə türkdilli hürufi mətnlərin yenidən elmi dövriyyəyə çıxarılmasında tarixi rol oynadı. Xatırladaq ki, Nəsimi divanının Salman Mümtaz nəşrindən əvvəlki daş basımı 1844-cü ildə İstanbulda buraxılmışdı, aradan 80 ildən çox vaxt keçirdi. Həm də mühümdür ki, Nəsimi irsi onun vətənində ana dilimizin zirvə abidələrindən və zirvə şairlərindən biri kimi bərpa edildi. Məhz Bakıda şairin hürufi əqidəsi onun sevilməsində və qiymətlənməsində maneə olmadı. Hürufilik isə bu gün Azərbaycan alimləri tərəfindən xalqımızın dini-fəlsəfi irsinin qiymətli hissəsi kimi araşdırılır.

Təxminən 50 il sonra - 1973-cü ildə o zaman Azərbaycanın rəhbəri olan Heydər Əliyev Nəsiminin yubileyinin qeyd edilməsi barədə rəsmi dövlət qərarı verdi və çox sevdiyi şair üçün Azərbaycan tarixində görunməmiş bir yubiley təşkil etdi. Həmin il şairin 600 illiyi UNESKO xətti ilə bütün dünyada qeyd edilirdi. Bu yubiley münasibətilə nəsimişünaslığı yeni mərhələyə çıxaran elmi və təbliği işlər görüldü. İlk dəfə olaraq şairin dünya kitabxanalarında saxlanan bütün anadilli şeirləri üç cilddə çap edildi. Şairin dilinin lüğəti buraxıldı, çoxlu nəşrlərinə geniş elmi şərhlər yazıldı, ikihissəli bədii film çəkildi, heykəli ucaldıldı.

İlk dəfə idi ki, yubiley tədbirlərinə xərclənən vəsaitə heç bir məhdudiyyət yox idi. Çünki pul deyil, görülən işlər əsas sayılırdı. Bakı yenidən nəsimişünaslığın mərkəzinə çevrildi. Biz Nəsimini milli tarixi və bədii irsimizin misilsiz nailiyyəti kimi yenidən dərk etdik. Nəticədə Türkiyə və İranda da Nəsimi irsinə maraq artdı, yeni elmi kitablar və nəşrlər meydana gəlməyə başladı. Azərbaycanda isə Salman Mümtazın davamçıları olan Həmid Araslı, Zümrüd Quluzadə, Cahangir Qəhrəmanov, Rüstəm Əliyev, Məmmədəli Əsgərov, Əliyar Səfərli, Qəzənfər Paşayev və digər nəsimişünaslar yetişdi və elmi fikrimizi zənginləşdirdi.

Ədəbiyyatımızı və dilimizi sevənlər, elmi ictimaiyyət, söz və sənət adamları Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Prezidentin 11 yanvar tarixli sərəncamını razılıqla qarşıladılar. Milli tarixi irsimizə Heydər Əliyev qayğısı ölkəmizdə dövlət səviyyəsində davam edir. Bu, müstəqil dövlət quruculuğunun ən fundamental istiqamətlərindən biridir. 2017-ci ilin may ayında Parisdə UNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir. Builki tədbirlər isə şairin vəfatının 650 illiyinə təsadüf edir. Əlamətdar hadisənin layiqincə qeyd edilməsi məqsədilə Prezidentin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırıldı.

❖ ❖ ❖

Nəsiminin divanı hürufi görüşlərini ifadə etməklə yanaşı, ana dilimizin poetik gücünü və gözəlliyini ifadə edən misilsiz bir ədəbi abidədir. Həm də bütün divanlarda (qədim nüsxələrdə fars və türkcə şeirlər bir yerdə toplanırdı) onun türkcə şeirləri farsca şeirlərindən sayca iki-üçqat çoxdur. Ona görə 600 ildən çoxdur ki, onun divanı bir tərəfdən şeir dilimizin, düşüncəmizin misilsiz gücünü yaşadır, təbliğ edir və dolayısı ilə hürufiliyi də bir əqidə kimi yeni nəsillərə ötürür. Lakin o da qeyd edilməlidir ki, tarixən hürufilik də türk şeir və nəsr dilinin inkişafına çox güclü təkan vermişdir və buna görə biz həmin təriqətin bütün əli qələmli nümayəndələrinə minnətdar olmalıyıq. Bütün ədəbi dillərin yaranması dini maariflə bağlı olmuşdur və biz də bundan istisna deyilik. Türkdilli divan ədəbi dilin XIV əsrdən islamın böyük ərazilərdə yaşayan türklər arasında yayılması səyləri ilə bağlı idi. Fəzlüllah da öz dini təlimini yaradanda onun türklər tərəfindən qəbul edilməsinə böyük ümidlər bəsləyirdi. Çünki türk tayfalarının hamısı hələ islamı tam mənimsəməmişdi, hətta mənbələrdə onun Əmir Teymurla görüşü barədə məlumatlar da var. Lakin bu görüş Teymurun hürufiliyə rəğbəti ilə bitməyib və yəqin ki, bununla hürufiliyin geniş yayılması şansı aradan gedib. Hürufi mətnlərinin yaradılması prosesi XIX əsrə qədər davam edib.

Müsəlman mətn mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan hürufilik ilk növbədə Şərqin özünün qabaqcıl adamları tərəfindən qorunub saxlanmışdır. Avropa və fransız maarifçiliyində ateist görüşlərin yayılması, dinin dövlətdən ayrılması orta əsr təriqət cərəyanlarına təmiz elmi-fəlsəfi, mədəni münasibət üçün yol açmışdır. Müsəlman təzkirə ənənəsində hürufilik həmişə sufiliklə bağlı və oxşar bir hadisə sayılıb. Gerçək həyatda doğrudan da belə olmuşdur. Hürufi hərəkatında və xanəgahlarında bütün təriqətlər birgə olmuş, xüsusilə sufilər daha çox hürufiliyə meyil göstərmişlər. Lakin yazılı abidə və sənədlərdə, xüsusilə hürufilərin müqəddəs kitab bildikləri "Cavidannamə"də bu məzhəbə aid dəqiq fəlsəfi və ehkami hüdudlar var. Nəsiminin dini şeirlərinin məna tərəflərini anlamaqda bu hüdudların prinsipial əhəmiyyəti mövcuddur. Nəsimi bir çox şeirlərində "Cavidannamə"nin müqəddəs kitab kimi adını böyük pərəstiş hissləri ilə xatırlayır və onun köklü ehkamlarını sadə bir türk dilində ifadə edirdi.

Təsadüfi deyil ki, hürufiliyin qurucusu Fəzlüllah 1394-cü ildə Naxçıvandakı Əlincə qalasında öldürülməzdən əvvəl Nəsimini öz doqquz xəlifəsindən biri elan etmiş və bununla ona hürufiliyin türkdilli ərazilərdə yayılması işini tapşırmışdı. Fəzlüllahın qətlindən sonra hürufilik yarılegal bir məzhəbə çevrildi. Türklərin yaşadığı böyük əraziləri və Azərbaycanı dərviş kimi addım-addım gəzən Nəsimi şeiri hürufi əqidəsini yaymaqla böyük hərəkat yaradırdı. Onun qətl edilməsinin əsl səbəbi də bu idi. Həmin hadisənin baş verdiyi XV əsrin əvvəllərində Osmanlı İmperatorluğunun böyük ərazilərində və İranda dini əqidəyə görə fərdi məhkəmələr və qətllər nadir hadisələr idi. Lakin Nəsiminin dini məhkəmə tərəfindən mühakimə edilməsi onun yaradıcılığının və ana dilində yazdığı şeirlərin böyük hərəkat yaratması və yəqin ki, siyasi qüvvəyə çevrilməsi ilə bağlı idi. Bu, Nəsiminin tarixi hünəri idi. Çünki o dövrdə hətta Osmanlı sarayında üstünlük ərəb-fars dillərinə verilirdi, türkcənin isə rəsmi statusu yox idi. Lakin məhz Nəsimi şeir dilinin və əqidəsinin təsiri ilə hələ 1417-ci ildə Amiloğlu adlı bir hürufiməslək şair və mütəfəkkir Fəzlüllahın "Ərşnamə" əsərini şeirlə türkcəyə tərcümə etmişdi. Bu tərcümə 2015-ci ildə İstanbulda "Arşnametercümesi" adı ilə Türkiyə Əlyazma Əsərlər Qurumu tərəfindən 504 səhifə həcmində latın əlifbası ilə çap edilib. Hürufilərin özlərinin türkcəyə çevirdiyi daha bir əsər vardır: bu, Fəzlüllahın "Məhəbbətnamə" əsəridir. Bu əsər hələ latın əlifbasında buraxılmayıb.

Bir necə kəlmə bu nəşrin tərtibçisi doktor Fatih Usluər (1976) haqqında demək lazımdır. Mən öz adımdan deyə bilərəm ki, o, bu gün dünyada hürufiliyin bir saylı bilicisi və yayıcısıdır. Yaşı 40-ı təzə keçib, ərəb-fars və fransız, ingilis dillərini bilir, qədim əlyazmalarını oxumaq və şərhlərlə nəşr etməkdə ən yaxşı müasir türk alimlərindən biridir. Onun həyatının əsas layihəsi hürufi mətnlərinin hamısını latın əlifbasında nəşr və şərh etməkdir. 2012-ci ildə Fəzlüllahın müqəddəs kitab sayılan "Cavidannamə"sinin türkcəyə XVII əsrdə edilmiş tərcüməsini də çapa hazırlayıb elmi şərhlərlə İstanbulda çap etdirən odur. Bu kitab 700 ilə yaxın vaxt ərzində "Cavidannamə"nin orijinalın dilində olmasa da, ilk çapıdır. Bu nəşr türkologiyada bir hadisədir. Fatih bəy Ankaradakı TOBB Ekonomi və Teknoloji Universitetində dərs deyir. Ərdoğanın hakimiyyətə gəlməsi qardaş ölkədə Osmanlı və müsəlman türk irsinə münasibətdə yeni yollar açıb və Fatih Usluərin fəaliyyəti də bu yöndədir.

❖ ❖ ❖

Bir faktı da qeyd edək ki, sufiliklə hürufiliyin eyniləşdirilməsi meyli hürufi mətnlərinin ortaya çıxarılmasına və öyrənilməsinə uzun zaman maneə törətmişdir. Bu maneənin aradan qaldırılması adətən fransız şərqşünası Klement Huartın (1854-1926) adı ilə bağlanılır. O, Avropada ilk dəfə hürufi mətnlərini sufi şeirlərindən fərqləndirə bilib və hürufi şeirinin özəlliyini nəzərə almaqla orada çap etdirib. Lakin insaf naminə deməliyik ki, xristian ruhaniləri əvvəlki əsrlərdə də hürufilərə rəğbətlə yanaşır və onların bəzi müsəlman ruhanilər tərəfindən məhv edilən əlyazmalarını öz kitabxanalarında qoruyurdular. Bunun əsas səbəbi hürufilərin İsa Məsihə böyük rəğbət göstərmələri idi. Nəsimi öz şeirlərində Fəzlüllahı İsayisani adlandırır, məşhur "Söz" qəzəli isə İsa Məsihə həsr edilmişdir.

Avropa maarifçiliyindən sonrakı dövrdə hürufiliyi ayrıca məzhəb yaratmaq təşəbbüsü kimi anlayan və qiymətləndirən böyük türkoloq alim Əli Əmiri (1857-1924) olmuşdur. O, Osmanlı dövlətində varlı ailədən olan böyük vəzifəli vergi məmuru idi və müxtəlif bölgələrdə xidmət etmişdi. Maliyyəçiliklə yanaşı, ömrü boyu qədim əlyazma kitablarını toplamaqla məşğul olmuşdur. Məsələn, o, Mahmud Kaşğarinin "Divane-lüqət-ət-türk" kitabını Türkiyədə elmi dövriyyəyə gətirən şəxsdir. Onun gördüyü işlər sırasında 1500-ə yaxın hürufi əlyazma mətnlərini ayrıca kataloq kimi toplayıb tərtib etməyidir. Əlbəttə, Əli Əmiri əfəndi hürufi mətnlərini sufi yazılarından ayıra bilməsəydi, bu kataloqu tərtib edə bilməzdi. Onun kataloqunda Klement Huartın çap etdirdiyindən yüz dəfələrlə çox hürufi mətnlərinin dəqiq ünvanı və təsviri var. Ona görə müasir elmi hürufişünaslığın əsl banisi Diyarbəkirdə doğulmuş Əli Əmiri əfəndi sayılmalıdır. O, İstanbulda 1908-ci ildə Milli Əlyazmalar Kitabxanasını yaratmış, ömrünün sonuna qədər onun rəhbəri olmuşdur.

❖ ❖ ❖

Müasir dünyadakı böhranlı vəziyyəti sivilizasiya və dinlərin toqquşması kimi anlayanlar daha çoxdur. Bu baxımdan hürufiliyin üç təkallahlı dini birləşdirmək missiyası çox müasir səslənir. Bu missiya "Cavidannamə"nin əsas leytmotividir. Təsadüfi deyil ki, Fəzlüllah böyük Əmir Teymurla görüşündə öz yolunu "etiqadi-vəhdətiyyə" kimi təqdim etmişdi. "Cavidannamə"də də "İxtilafların dəf edilməsi" adlı 118 saylı bab vardır. Burada deyilir ki, Adəm övladı olmaqla insanlar zahiri cəhətdən eyni cürdülər. Amma batini etiqad cəhətdən insanlar bir-birinə müxalifdirlər, çünki "ümməti-vahid" olmayıblar, bir olan Allaha tərəf düz yolu tapmayıblar. Hürufilərin təlimi bu yolu tapmalı və açmalı idi, onda Adəm övladı etiqad cəhətdən də bir cür olacaqdır, necə ki, zahiri cəhətdən bir cürdülər. Məlumdur ki, Quranda Musaya, İsaya və Məhəmmədə göndərilən kitablar eyni həzrəti Əhədiyyətə aid olması, əhli-kitab anlayışı dəfələrlə təkrarlanır. "Cavidannamə"dəki bir necə bab tərsalara müraciətlə "ey tərsa" xitabı ilə səslənir, çünki xristianların da bu yola gələcəyinə böyük ümidlər vardı. Nəsimi "vəhdət meyin nuş etdilər dərvişilər" deyəndə bu layihədən danışırdı.

Nəsimini böyük şair və mütəfəkkir kimi sevdirən cəhətlərdən biri hürufilərin insan haqqında təlimlərini misilsiz bir inam və səmimiyyətlə tərənnüm etməsi idi. Bu təlimdə həqiqətən insanı müqəddəsləşdirən bir yenilik vardı. Təkallahlı mifologiyada Allahın insanı Özünə oxşar və gözəl şəkildə yaratması barədə təsəvvürlər vardır. Xilqət məsələsinə ciddi önəm verən Fəzlüllah "Cavidannamə"də bu məsələyə geniş yer vermiş, müxtəlif dini kitablarda, Quranda və hədisdə insanın 40 gündə yaradılması barədə detalları yeni bir məntiqlə təkrarlamışdır. Adəmi xəlq edəndə Yaradan onu Özünə oxşar yaradıbsa, deməli, insan sifətində və vücudunda Allahın cizgiləri və qətrələri vardır. Hər bir insan öz üzündə Yaradanın xilqətdə adamlara bəxş etdiyi yazını daşıyır və bu yazı müqəddəsdir. Ona görə Nəsimi deyir:

*Hər nə var, adəmdə var,*
*adəmdən istə sən həqi,*
*Olma İblisi şəqi, adəmdə*
*sirrüllahi var.*

Beləcə, insan Allahı tanımaq üçün qapı və güzgü olur. Lakin bu qabiliyyət hamıya verilməyib. Öz vücudunda ilahi əlamətləri görə bilənlər əhli-nəzər, bunu bacarmayanlar isə əyri-nəzər adlanırdı. İnsan sifətinin müqəddəsliyi Nəsiminin sevimli motivlərindən biridir. Təsadüfi deyil ki, onun Fəzlüllaha həsr olunan qəzəllərinin birinci beyti həmişə Fəzlüllahın üzünün müqəddəsliyinə və ilahi cizgilər daşıması məsələsinə həsr olunur. Hürufilər insanı öldürməyi ən böyük günah sayırdılar.

Bundan əlavə, hürufilərin yaratdığı güclü etik tərbiyə sistemi də insan vücudundakı ilahi cizgi və xətlərlə bağlanırdı. Ənənəvi dində əxlaq tərbiyəsi Allah qorxusu, fasiləsiz dua və ibadət, xristianlar üçün gəlmiş on əmr üzərində qurulurdu. Hürufilərdə isə tərbiyə və özünütərbiyə insanın öz vücudunda ilahi yazı və əlamətləri tapmağı tələb edirdi. Beləliklə, tərbiyə təkcə iradəni yox, ağlı, fəhmi, psixikanı da təkmilləşdirmək tələb edirdi. Bu nəyə lazım idi? İlk növbədə insanların Allaha sarı yolu tapması və Ona qovuşması üçün lazım idi. Bu qovuşma müvəhhidlik vəziyyəti adlanırdı və hürufinin həyat idealı sayılırdı. Çox güman ki, hürufi hərəkatına güclü axın ən çox bu müvəhhidlik qapısının verilməsi ilə bağlı idi. Hürufilər ibadət formalarından ancaq namaza üstünlük verirdilər. "Cavidannamə"də ən düzgün və ən səmimi o namazdır ki, onu qılanda, nəhayət, Allahın Üzü görünür sənə. Beləcə, mistika ilə realizm hürufilikdə birləşirdi.

❖ ❖ ❖

Hürufilər gələcəyə baxan, gələcəyə tələsən insanlar idilər. Dünyada dini sülh yaratmaq istəyirdilər. Orta əsrlərdə onları hər kəs anlamırdı. Lakin onların müqəddəs kitabı "Cavidannamə"ni oxuyanda onun sağlam, müasir səslənən fikir və görüşlərlə necə zəngin olduğuna təəccüb edirsən. Nəsiminin və hürufilərin ən yaxşı arzuları bizim xalqımıza da xidmət edir, bizi zənginləşdirir. Prezident İlham Əliyevin sözügedən sərəncamından biz klassik ədəbiyyatımızın daha geniş tədqiqi və təbliği üçün istifadə etməliyik. Xüsusilə türkdilli hürufi şairlərin heç də hamısı nəşr və tədqiq edilməyib. Onların arasında Nəsimi miqyasında olanı yoxdur. Amma son 50 ildə hürufişünaslığın inkişafı bu hərəkatı və onun türkdilli mətn ənənəsini ədəbiyyat tarixlərində daha geniş işıqlandırmağı tələb edir. Bu baxımdan məktəb dərsliklərinə də baxmaq olar. Hürufi hərəkatı tarixi baxımdan da geniş araşdırılmalıdır.

Nəsimi - insanlıq tarixində məlum olan ən böyük əqidə şəhidlərindən biridir. Onun bütün şeirləri sığındığı Allahı haqqındadır, bu şeirlərin sidqi və səmimiyyəti bu gün də insanları heyran qoyur. Lakin onun qətl fitvasında küfr sözü də yer aldı. Tarixdə belə məntiqsizlik çox olub. Yaxşı ki, tarix özünü təshih də edə bilir. Belə şairlərlə bütün bəşəriyyət fəxr edir, çünki insanlar arasında hər bir tərəqqi yeni təsəvvür və layihələrdən doğur. Bu layihələrdən qorxanlar əslində gələcəkdən qorxurlar. Belə layihələrin qədrini bilən xalqlar və dövlətlər özləri də ucalırlar.

***Rəhim ƏLİYEV,***
***filologiya elmləri doktoru***

## Hərbi hissədə bədbəxt hadisə baş verib

İyulun 6-da səhər saatlarında hərbi hissələrdən birində bədbəxt hadisə baş verib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tank mərmisinin atımının hərbi qulluqçunun əlindən yerə düşməsi nəticəsində partlayış olub. Nəticədə iki hərbi qulluqçu - gizir Ağalarov Amiddin Şahmalı oğlu və kiçik çavuş Salahov Samir Çingiz oğlu həlak olublar. Hadisə nəticəsində gizir Məmmədov Nurlan Rəhim oğlu ağır xəsarət alıb.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olanların yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyir.

Faktla bağlı araşdırma aparılır.

## Hərbi Prokurorluq hərbi hissələrdən birində baş verən bədbəxt hadisə ilə bağlı məlumat yayıb

Azərbaycan Respublikasının Hərbi Prokurorluğu iyulun 6-da səhər saatlarında hərbi hissələrdən birində baş verən bədbəxt hadisə ilə bağlı məlumat yayıb.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir: "İyulun 6-da baş vermiş məlum hadisə ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun və ərazi hərbi prokurorluğunun işçiləri hadisə yerində olublar. Fakt üzrə Azərbaycan Respublikası Hərbi Prokurorluğunda cinayət işi başlanılıb, Hərbi Prokurorluğun təcrübəli və peşəkar işçilərindən ibarət istintaq qrupu yaradılıb və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilir. Hadisə yerinə baxış keçirilməsi, iş üçün əhəmiyyət kəsb edən predmetlərin götürülməsi, hadisə şahidlərinin dairəsinin müəyyənləşdirilərək onların dindirilməsi, müvafiq ekspertizaların keçirilməsi və digər zəruri istintaq hərəkətlərinin icrası təmin edilməklə qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlər görüləcək.

Hərbi Prokurorluq həlak olanların qohumlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

Cinayət işinin istintaqı Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyinin nəzarətindədir".


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin 02.06.2019-cu il tarixdə elan etdiyi kotirovka sorğusunun "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən təklif vermiş iddiaçıların sayı üçdən az olduğu üçün davamından imtina edilir. Malgöndərən (podratçı) təşkilatlar tərəfindən göndərilmiş təklif zərfləri açılmadan geri qaytarılır.

**Ünvan: AZ1005 Bakı şəhəri, Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13.**
**Əlaqələndirici şəxs: Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66.**

***Tender komissiyası***




Foto Fərman BAĞIROVUNDUR

# Beynəlxalq aləm

## MAQATE İranla bağlı təcili iclas keçirəcək



Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) Direktorlar Şurası iyulun 10-da keçiriləcək təcili iclasında İranın nüvə proqramı ətrafında yaranmış vəziyyəti müzakirə edəcək. Bu fövqəladə görüşü keçirmək xahişini ABŞ-ın Vyanadakı beynəlxalq təşkilatlarda təmsilçisi Ceki Uolkot etmişdir.

Həmin gün ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Con Bolton vurğulamışdır ki, "Tehranın nüvə ambisiyalarından imtina etməsi üçün İran təzyiqə məruz qalmalıdır".

Boltonun dediyinə görə, iyulun 10-da keçiriləcək iclasda müzakirələr mövzusu "İranın nüvə sferasında yolverilməz hərəkətləri" olacaq.

Bir müddət əvvəl MAQATE təsdiqləmişdir ki, İran 2015-ci ildə imzalanmış beynəlxalq nüvə sazişinin müddəasını ilk dəfə pozmuşdur və zənginləşdirilmiş uranın saxlanma limitini artırmışdır.

## BMT TŞ Liviyada barışığa çağırdı



BMT Təhlükəsizlik Şurası (TŞ) barışıq və atəşkəs çağırışı ilə Liviyadakı bütün münaqişə tərəflərinə müraciət etmişdir. Bu barədə TRT telekanalı xəbər verir.

Sənəddə deyilir ki, TŞ üzvləri iyulun 2-də Trablis yaxınlığındakı miqrantlar düşərgəsinə hücumu pisləyir. Həmin bombardman nəticəsində 56 nəfər həlak olmuş, 130 nəfərdən çox qaçqın yaralanmışdır.

Bəyanatda qeyd olunur ki, Liviyada dayanıqlı sülh və sabitlik ancaq siyasi tənzimləmə vasitəsilə əldə oluna bilər.

BMT-nin Liviyadakı missiyasının (UNSMIL) məlumatına görə, Tacura rayonunda qeyri-leqal miqrantların saxlanma mərkəzinə endirilmiş aviasiya zərbəsi nəticəsində isə 44 nəfər həlak olmuş, 130-dan çox adam xəsarət almışdır.

BMT-nin Liviyada tənzimləmə üzrə xüsusi elçisi Həsən Salamenin dediyinə görə, qaçqınlar düşərgəsinə aviasiya hücumunu hərbi cinayət kimi qiymətləndirmək olar.

## Əfqanıstanda məsciddə partlayış törədildi



Əfqanıstanın şərqində yerləşən Qəzni əyalətinin inzibati mərkəzindəki məsciddə partlayış törədilmişdir. Bu barədə "Pajvok" agentliyi xəbər verir.

Terror aktı axşam namazı zamanı, məsciddə çoxlu adam olduğu vaxt baş vermişdir. Azı 21 nəfərin yaralandığı bildirilir. Həlak olanlar barədə məlumat verilmir.

Regionda fəaliyyət göstərən terrorçu qruplaşmalardan heç biri bu hücuma görə hələ ki, məsuliyyəti üzərinə götürməmişdir.

## Amerikalı milyarder helikopter qəzasında həlak oldu



Baham adalarında helikopter qəzaya uğramışdır. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Qəza nəticəsində 7 nəfərin həlak olduğu bildirilir. Qurbanlardan biri milyardlıq varidatın sahibi, kömür maqnatı, 61 yaşlı amerikalı Kristofer Klayndır. Helikopterin Atlantik okeanına düşməsi səbəbi araşdırılır. O, Florida ştatındakı Fort-Loderdeyl şəhərinə uçurmuş. Həlak olanların hamısı ABŞ vətəndaşıdır.

## Çindən yola düşən daha bir blok qatarı Azərbaycana çatıb



Çindən yola düşən daha bir blok qatarı Azərbaycana çatıb. İyulun 6-da Abşeron Logistika Mərkəzində qatarın qarşılanma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə İqtisadiyyat naziri Şahin Mustafayev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, Sian şəhəri Xalq hökumətinin vitse-meri Qao Qao, Şansi vilayətinin Kommersiya Departamentinin direktor müavini Tan Yuntanq iştirak ediblər.

Layihə bu ilin aprelində Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Forumunda "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri C.Qurbanovun iştirakı ilə qurumun törəmə şirkəti olan "ADY Konteyner" MMC və Çinin "Xi'an Continental Bridge International Logistics Co. Ltd" şirkəti arasında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə hərəkət edən konteyner qatarlarının təşkili üzrə əməkdaşlıq çərçivəsində baş tutub. Hər iki şirkət cari ildə 30 konteyner qatarı (2460TEU) buraxmağı planlaşdırır.

Mərasimdə çıxış edən İqtisadiyyat naziri Ş.Mustafayev Azərbaycan-Çin münasibətlərinin inkişafından danışıb, Prezident İlham Əliyevin 2015-ci ildə Çin Xalq Respublikasına tarixi səfərini qeyd edib. Nazir Azərbaycanın Çinin "Bir kəmər, bir yol" layihəsinə ilk qoşulan ölkələrdən olduğunu vurğulayıb.

O, cari ilin 6 ayında Azərbaycanla Çin arasında ticarət dövriyyəsinin ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə artdığını qeyd edib. Çinlə həm siyasi, həm iqtisadi, həm də nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndiyini vurğulayıb.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri C.Qurbanov çıxışında blok qatarları ilə yüklərin çatdırılma müddətinin qısaldılması istiqamətində görülən işlərdən, dəmir yolunda aparılan islahatlardan danışıb. Əlverişli coğrafi mövqeyə malik, "Böyük İpək Yolu"nun üzərində yerləşən Azərbaycanın Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas iştirakçısı olduğunu qeyd edib. O, ölkəmizin üzərindən keçən yüklərin həcminin daha da artması istiqamətində atılan addımlardan söz açıb.

Sian şəhəri Xalq hökumətinin vitse-meri Q.Qao isə Sian-Bakı blok qatarının Azərbaycan və Çin şirkətlərinin işinə böyük töhfə verəcəyini deyib. "Ötən il Siandan Avropaya 1300-dən çox qatar yola salınıb, bu isə milyardlarla dollar gəlir deməkdir. Bu gün Siandan Bakıya gələn qatar reysi ümumilikdə Çindən Avropaya gedən 13-cü marşrut yoludur. Ümid edirik ki, çinli və azərbaycanlı biznesmenlər yaradılmış bu şəraitdən yararlana biləcəklər. İnanırıq ki, Çinin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycanla əməkdaşlığımız daha da genişlənəcək. Sian-Bakı qatar yolu bu istiqamətdə atılan vacib addımlardan hesab edilə bilər", - deyə Q.Qao bildirib.

Sian-Bakı ilk blok qatarı 21 ədəd 45 futluq və 15 ədəd 40 futluq konteynerdən ibarətdir.

## "Azercell" yeni kampaniya keçirir

Yüksək sürətli interneti hər kəs üçün əlçatan etməyi hədəfləyən "Azercell" abunəçilərini yeni kampaniya ilə sevindirir. Belə ki, 3G USB, 3G MiFi və ya 4G MiFi cihazlarından birini əldə edən abunəçilər hədiyyə qismində verilən sərfəli internet paketlərindən yararlana biləcək. Qeyd edək ki, abunəçi tərəfindən ödənilən məbləğin 100 faizi cihaz üzərində təqdim olunan nömrənin balansına geri qaytarılır. Cihazlar nağd ödəniş əsasında satıldığından növbəti aylarda məcburi abunə haqqı tələb olunmur və cərimə tətbiq edilmir.

Beləliklə, kampaniya çərçivəsində 149 AZN ödəyərək 4G MiFi alan abunəçilər 5 ay boyunca hər ay hədiyyə qismində təqdim olunan Limitsiz internet paketindən istifadə edəcək. Dəyəri 99 AZN olan 3G MiFi cihazını alan istifadəçilər 5 ay ərzində hər ay ödənişsiz təqdim edilən 30 GB-lıq internet paketindən yararlana biləcək. 3G USB cihazını 24 AZN ödəyərək əldə edən abunəçilərə isə 3 ay boyunca hər ay 10 GB həcmində internet paketi hədiyyə olunacaq.

Kampaniyaya qoşulmaq üçün abunəçilər "Azercell" müştəri xidmətləri, "Azercell" eksklüziv mağazaları və ya diler ofislərinə müraciət edərək mövcud təkliflərdən birini seçə bilərlər.

*"Azərbaycan"*

# Bəzi bölgələrdə dolu düşəcək

Ölkə ərazisində bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, yağmursuz olacaq. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 20-23°, gündüz 26-30° isti, Bakıda gecə 21-23°, gündüz 28-30° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan aşağı - 756 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada 22-23°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil və Şıxda 23-24° isti olacaq.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, leysan xarakterli olacağı, ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 30-35° isti, dağlarda gecə 12-17°, gündüz 19-24° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 31-36° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, leysan xarakterli olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 19-24° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında əsasən gecə və axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 28-33° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında arabir yağış yağacağı, bəzi yerlərdə leysan xarakterli olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 25-30° isti, dağlarda gecə 8-13°, gündüz 18-23° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərinin, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 30-35° isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 18-20°, gündüz 30-35° isti, dağlarda gecə 14-18°, gündüz 21-26° isti olacağı bildirilir.

## Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

## Naxçıvanda şahmatçıların təsnifat turniri yekunlaşıb

Naxçıvan Şahmat Mərkəzinin şahmatçıları arasında keçirilən təsnifat turniri başa çatıb.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və şəhər Uşaq-gənclər şahmat məktəbinin təşkilatçılığı ilə keçirilən turnir üç gün davam edib. Turnirdə 100-dən çox şahmatçı 9 qrup üzrə mübarizə aparıb.

İsveçrə sistemi ilə keçirilən turnirin yekununa əsasən, dərəcəsi olmayanların qrupunda 11 xalla qalib adını Fərid Qurbanov qazanıb. IV dərəcəlilərin qrupunda 10 xalla Yusif Abutalıblı, III dərəcəlilərin qrupunda 8,5 xalla Uğur Mirzəyev, II dərəcəlilərin qrupunda isə 10 xalla Əhməd Sabir qalib adını qazanıblar. Sonda qaliblər təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə əzizi

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Dövlət Universitetinin rəhbərliyi və kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lazım Quliyev Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 8518**
**Sifariş 2164**
**Qiyməti 40 qəpik**